RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 192 (8508) ÇƏRŞƏNBƏ AXŞAMI, 22 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İlham Əliyevdən qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümayişi

## Azərbaycan Prezidenti Ermənistanın rəhbərliyinə və işğalçının havadarlarına növbəti sərt xəbərdarlığını ünvanladı

Qlobal böhran səbəbindən yaranmış gərginlik, digər tərəfdən qloballaşma və mürəkkəb beynəlxalq münasibətlər şəraiti dünya ölkələrini yeni çağırışlarla üz-üzə qoyub. Hər bir dövlətin qarşısında duran strateji vəzifə, prioritet məsələ böhran fonunda dayanıqlı inkişafın təmin olunması və milli maraqların müdafiəsini əks etdirən daxili və xarici siyasətin həyata keçirilməsidir. Bu mənada, Azərbaycan nümunəvi reallıqlar yaradan ölkələr sırasında yer alır.

Prezident İlham Əliyevin yürütdüyü diplomatiyanın uğurlarının əsas səbəbi budur ki, dövlət başçısı qlobal siyasi və iqtisadi proseslərlə bağlı dəyişiklikləri qabaqcadan görür və Azərbaycanı bu dəyişiklikləri qarşılamaq üçün hazırlaya bilir. Müdrik dövlət başçısı kimi beynəlxalq münasibətlərdə sürətlə baş verən proseslərdən xalqın xeyrinə məharətlə istifadə etməyi bacarır. Həmçinin ümummilli məsələlərdə, xüsusən də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyət, prinsipial mövqe nümayiş etdirir. Bütün bunlar isə hər zaman xalq tərəfindən dəstəklənir.

### Xalqı narahat edən istənilən məsələ Prezidentin gündəliyində birinci olur

Bu günün reallığı göstərir ki, Azərbaycan hazırda iki cəbhədə mübarizə aparmaqdadır. Cənab İlham Əliyev bir tərəfdən qlobal pandemiyaya qarşı mübarizə tədbirləri, digər tərəfdən işğalçı Ermənistanın hərbi-siyasi təxribatlarına layiqli cavabın verilməsi istiqamətində qətiyyətli qərarlar qəbul edir, inamlı, cəsarətli addımlar atır.

Pandemiya ilə uğurlu mübarizənin nəticəsidir ki, bu gün ölkədə həm virusa yoluxma istiqamətində müsbət dinamika müşahidə olunur, həm də xalqın sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı müxtəlif layihələr reallaşdırılır. Prezidentin ölkə iqtisadiyyatının 2,8 faiz azalması fonunda təqdim etdiyi sosial dəstək paketi çərçivəsində həyata keçirilən proqramların 5 milyon insanı əhatə etməsi bunu təsdiqləyir.

Cənab İlham Əliyevin böhran şəraitində həyata keçirdiyi siyasət bununla yekunlaşmır. Bütün dövrlərdə olduğu kimi, Azərbaycanın mənafeyinə təsir edən hər bir məsələni xüsusi nəzarətində saxlayan, bununla əlaqədar istənilən ölkə, beynəlxalq qurum qarşısında məsələ qaldıran və onların həllinə nail olan, milli maraqları qətiyyətlə, xüsusi prinsipiallıqla müdafiə edən İlham Əliyev ənənəsinə sadiqlik nümayiş etdirir. Ölkə ictimaiyyəti İlham Əliyevin milli maraqlar naminə ciddi addımlar atdığına və istənilən dövlət başçısı ilə müzakirələrdə Azərbaycan üçün ümdə sayılan məsələləri qaldırdığına daim şahidlik edir. Bu da, əlbəttə ki, hər kəsdə fəxarət hissi yaradır.

Son aylarda Ermənistanın aşkar şəkildə Dağlıq Qarabağda həyata keçirdiyi qeyri-qanuni məskunlaşma tədbirləri, eləcə də həmsədr ölkə tərəfindən işğalçının silahlandırılması Azərbaycan xalqının haqlı narazılığına, ciddi etirazına səbəb olub. Baş verən hadisələr işğalçı Ermənistanın beynəlxalq konvensiyaların şərtlərini pozduğunu və həmçinin müharibəyə hazırlaşdığını göstərir. Çünki heç bir beynəlxalq təşkilat, xüsusən də ATƏT-in Minsk qrupu Ermənistana təzyiq göstərmir. Hər zaman olduğu kimi, seyrçi mövqe nümayiş etdirilir. Bu da bir daha ikili standartlar prinsipinin davam etdiyini təsdiqləyir.

Xalqı narahat edən bu məsələ təbii ki, Prezidentin də diqqət mərkəzindədir. Sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindən sonra televiziya kanallarına müsahibə verən cənab İlham Əliyev həm danışıqlar prosesinin gedişatını, həm mövcud vəziyyəti qiymətləndirdi, həm də son hadisələrə görə Ermənistanın terrorçu hakimiyyətinə növbəti xəbərdarlığını ünvanladı.

### Çirkin planların nəticəsi Ermənistan üçün çox ağır olacaq

Danışıqların hazırkı vəziyyətini mənfi qiymətləndirən dövlət başçısı xalqa bir daha həqiqətləri çatdırdı: "Danışıqlar faktiki olaraq getmir. Mən demişəm ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik. O demək deyil ki, biz danışıqlardan imtina edirik, ancaq o deməkdir ki, biz Ermənistanın özünə görə bic siyasətinə qoşulmaq istəmirik. Bu görüntü naminə aparılan danışıqlarda iştirakımız o görüntünün mahiyyətinə uyğun olacaqdır. Faktiki olaraq Ermənistan rəhbəri danışıqlar prosesini pozub, pozur yox, pozub".

Ardı 5-ci səh.

# İlham Əliyev dünyanın ali tribunasından Azərbaycanın prinsipial mövqeyini bir daha bəyan etdi

## Ermənistan silahlı qüvvələri işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxmalıdır

Sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli iclas keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev iclasda videoformatda çıxış edib.

AZƏRTAC xəbər verir ki, iclasda, ümumilikdə, 182 ölkənin dövlət və hökumət başçısı videoformatda çıxış edəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı sayca altıncı idi. Dünya üzrə 182 ölkə arasında Azərbaycanın dövlət başçısının sayca altıncı çıxış etməsi, şübhəsiz ki, Prezident İlham Əliyevə həm Azərbaycanın dövlət başçısı, həm də Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq səviyyədə göstərilən hörmət və etimadın təzahürüdür.

Qeyd edək ki, dövlətimizin başçısı çıxışını iki hissədə - Qoşulmama Hərəkatının sədri və Azərbaycan Prezidenti kimi etdi.



### Prezident İlham Əliyevin çıxışı

Cənab Sədr.
Cənab Baş katib.

Azərbaycan Respublikası 120 ölkənin yekdil qərarı ilə 2016-cı ildə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür.

Bu çıxışımı Qoşulmama Hərəkatına üzv dövlətlərin adından etməyə şərəf duyuram.

Qoşulmama Hərəkatına üzv dövlətlər BMT Nizamnaməsinin imzalanmasının 75-ci ildönümünə həsr edilmiş bu Yüksək Səviyyəli iclasın keçirilməsini yüksək qiymətləndirirlər.

BMT, onun nizamnaməsi və beynəlxalq hüquq dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanılmasında və beynəlxalq əməkdaşlığın gücləndirilməsində mühüm və əvəzolunmaz alətlərdir. Məhdudiyyətlərinə baxmayaraq, BMT hazırda bütün ölkələrin qarşılaşdığı qlobal məsələ və çağırışların müzakirəsi üçün çoxtərəfli mərkəzi forum olmaqda davam edir.

Qoşulmama Hərəkatı təsdiq edir ki, narahatlıq doğuran yeni sahələr və çağırışlar meydana gəlib. Burada BMT Nizamnaməsinin prinsip və məqsədlərinin, beynəlxalq hüququn prinsiplərinin bərqərar olunması və qorunması üçün beynəlxalq ictimaiyyət tərəfindən müvafiq öhdəlik yenidən nümayiş etdirilməlidir.

İnsan hüquqlarının pozulması, maliyyə böhranları və ekologiyanın pisləşməsi ilə müşahidə olunan silahlı münaqişələr, təcavüzkar ekspansionist siyasətlər, terrorçuluq, separatizm, beynəlxalq mütəşəkkil cinayətkarlıq və ekstremizm dünyada milyonlarla insana mənfi təsir etməkdə davam edir.

Bu gün dünyanın hər zaman olduğundan daha çox beynəlxalq hüquqa hörmət və bunu təmin etmək iqtidarında olan səmərəli qlobal təsisatlara ehtiyacı var. Bu baxımdan Qoşulmama Hərəkatının rolu mühüm əhəmiyyətə malikdir. Özünün tarixi boyunca Qoşulmama Hərəkatı beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsində fundamental rol oynamış və davamlı olaraq beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət edilməsinə çağırmışdır.

Ardı 2-ci səh.

# Güclü dövlətin qüdrətli ordusu

## İlham ƏLİYEV: "İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

İyulun ortalarında dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbi təxribatın qarşısının alınması Azərbaycanın Ermənistan üzərində üstünlüyünü son illərdə təsdiq edən növbəti hadisə oldu. Düşmən qəflətən hücum etsə də, ordumuzun sayıqlığı və müasir döyüş imkanları nəticəsində dərhal geri oturduldu. Əks-həmlə və zərbələrlə geri qaçmağa məcbur olan ermənilər ciddi tələfata məruz qaldılar.

### Döyüş imkanları ən müasir standartlar səviyyəsinə çatdırılıb

Bu qələbə göstərdi ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə əsasını qoyduğu ordumuz onun arzu etdiyi kimi inkişaf edib, qüdrətlənib, regionun hərbi gücünə çevrilib. 27 il əvvəl təsəvvür də etmirdik ki, Azərbaycan tezliklə ən yüksək inkişaf göstəricilərinə nail olacaq, BMT Təhlükəsizlik Şurasına sədrlik edəcək, kosmik klubda yer alacaq. Lakin Heydər Əliyevin qurduğu və onun ideyaları ilə addımlayan Azərbaycan dövləti bütün bunlara nail oldu. Biz bu gün Heydər Əliyevin böyük müdrikliklə yerinə yetirdiyi xilaskarlıq missiyasının sayəsində uğurlarımızla, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, tarixin ən qüdrətli Azərbaycanı ilə fəxr edirik.

Hər bir azərbaycanlının qürur və fəxarət duyduğu ünvanlardan biri də Silahlı Qüvvələrimizdir. Ulu Öndərin yaratdığı bu ordu İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 17 ildə böyük inkişaf yolu keçib.

Ardı 5-ci səh.

# Prezident İlham Əliyevin rəsmi "Facebook" səhifəsində Neftçilər Günü ilə bağlı paylaşım edilib

Prezident İlham Əliyevin rəsmi "Facebook" səhifəsində Neftçilər Günü ilə bağlı paylaşım edilib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Neftçi peşəsi hörmətli, eyni zamanda, riskli, təhlükəli peşədir, onların əməyi əsl qəhrəmanlıqdır. Ölkəmizin uğurlu inkişafında neftçilərin çox böyük rolu vardır".

# Ermənistana məxsus növbəti taktiki PUA məhv edilib

Sentyabrın 20-si saat 23:13-də Ermənistan silahlı qüvvələrinin bölmələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda məhv edilmiş PUA-nın qalıqlarının aşkar olunması istiqamətində axtarış aparılır.

# Ermənistanı sarsıdıcı zərbələr gözləyir

## Paşinyan hakimiyyəti daxili qeyri-sabit vəziyyəti kompensasiya etmək məqsədilə Qarabağ kartından sui-istifadə edir

Ermənistan iqtidarının siyasəti üzündən Dağlıq Qarabağ münaqişəsinin həlli uzanır, eyni zamanda, regionda təhlükəsizliklə bağlı təhdidlər artır. Bu ondan irəli gəlir ki, ölkənin rəhbərliyi hələ də reallığı lazımınca dərk edə bilmir.

Daha bir vacib məqam odur ki, Paşinyan hakimiyyəti bu gün ölkə daxilindəki qeyri-sabit vəziyyəti, yürütdüyü yöndəmsiz siyasətin nəticəsi olan rəzaləti kompensasiya etmək məqsədilə Qarabağ kartından istifadə etmək istəyir.

Eləcə də o da sirr deyil ki, Ermənistan növbəti dəfə Yaxın Şərq bölgəsindəki vəziyyətdən, Livanda baş vermiş dəhşətli partlayışdan öz məqsədləri üçün istifadə edərək faydalanmağa çalışır. Belə ki, Ermənistanın rəhbərliyi Livanda yaşayan erməni əsilli livanlıların "kömək" adı altında Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasətini həyata keçirməkdədir.

Ardı 5-ci səh.

# "Abşeron"la ölkəmizin neft-qaz sənayesində daha bir səhifə açılır

## Prezident İlham ƏLİYEV: "Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır"

"Abşeron" yatağının işlənməsi ilə Azərbaycanın neft-qaz sənayesinin daha bir səhifəsi açılır. Bu il sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) yatağın dəniz əməliyyatlarının təməlqoyma mərasimi keçirilib.

Prezident İlham Əliyevin tədbirdə iştirak etməsi, "Abşeron"da quraşdırılacaq dayaq blokları və digər sualtı qurğular barədə məlumat alması layihənin necə əhəmiyyətli olduğuna bir daha diqqət çəkir.

Bu qurğular SOCAR-ın "BOS Şelf" şirkəti tərəfindən tikilib. Şirkət Azərbaycanda ilk dəfə bütün mühəndislik, təchizat, tikinti, quraşdırma işlərini həyata keçirməklə layihənin tam təminatla təhvil verilməsi üsulunu tətbiq edib. Yataqda quraşdırılacaq hasilat platforması da növünə görə nadirdir. Yəni qurğunu kənardan - "Neft Daşları"nda yerləşdirilən moduldan idarə etmək mümkün olacaq. Başqa sözlə, "Abşeron" layihəsində Xəzərdə ilk dəfə "boru içində boru" texnologiyası tətbiq ediləcək.

Xatırladaq ki, "Abşeron" yatağı Xəzər dənizinin Azərbaycan sektorunda, suyun 500 metr dərinliyində yerləşir. Yatağın ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir. Bu isə o deməkdir ki, "Abşeron"un istismarı Azərbaycanda təbii qaz hasilatının artmasına əhəmiyyətli töhfə verəcək.

Ardı 6-cı səh.

# İlham Əliyev dünyanın ali tribunasından Azərbaycanın prinsipial mövqeyini bir daha bəyan etdi

## Ermənistan silahlı qüvvələri işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxmalıdır

*Əvvəli 1-ci səh.*

Qoşulmama Hərəkatı BMT-nin rolunun gücləndirilməsinə çox böyük əhəmiyyət verir və onun potensialından tam istifadə olunması üçün səylərin göstərilməsini vacib hesab edir.

Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq.

BMT universal üzvlüyü təmin edən yeganə qlobal təsisatdır və beləliklə də dayanıqlı inkişafa nail olunması məqsədilə qlobal iqtisadi idarəçiliyi əhatə etmək iqtidarındadır. Bu səbəbdən BMT-nin qlobal iqtisadi idarəçilikdə rolu gücləndirilməlidir. Qlobal iqtisadi idarəçilikdə müvafiq rolu oynamaq üçün təşkilat çərçivəsindəki proseslərə, multilateralizmə və onun təməl dəyərlərinə sadiqlik baxımından bütün üzvlərin siyasi iradəsi olduqca əhəmiyyətlidir.

Bu gün davam edən COVID-19 pandemiyası multilateralizmin əhəmiyyətini bir daha nümayiş etdirir.

Qoşulmama Hərəkatı artmaqda olan, BMT Nizamnaməsini və beynəlxalq hüququ sarsıdan, birtərəflilik və birtərəfli tədbirlərdən istifadə halları ilə bağlı ciddi narahatlığını vurğulayır, ədalətli, bərabərhüquqlu dünya nizamının və qlobal demokratik idarəçiliyin yaradılması üçün BMT-nin Nizamnaməsinə və beynəlxalq hüquqa ciddi riayət olunması vasitəsilə multilateralizmin və BMT çərçivəsində çoxtərəfli qərar qəbul olunması prosesinin təşviqi, qorunması, canlandırılması, islahatların aparılması və gücləndirilməsinə sadiqliyini bir daha qeyd edir.

Bu il Qoşulmama Hərəkatı üçün də əlamətdardır, çünki biz hərəkatın təməl prinsiplərini özündə əks etdirən Bandunq Bəyannaməsinin qəbul edilməsinin 65 illiyini qeyd edirik.

Qəbul edildiyi gündən Bandunq Prinsipləri onlara sadiqliyini bəyan edən dövlətləri soyuq müharibə dönəmində istiqamətləndirmişdir. Soyuq müharibədən sonra qarşı-qarşıya dayanan iki blokun mövcud olmaması Bandunq Prinsiplərinin əhəmiyyətini və qüvvəsini heç də azaltmayıb. Əksinə, sülh və inkişafa dair mürəkkəb çağırışların fonunda onlar bu gün hər zaman olduğundan daha əhəmiyyətlidir.

Hər iki ildönümü bizə BMT Nizamnaməsində və Bandunq Bəyannaməsində əks olunmuş əsas hədəflərə nail olmaq istiqamətində əldə etdiyimiz tərəqqini nəzərdən keçirməyə və bizə - BMT-yə üzv olan dövlətlərə meydana çıxmaqda davam edən çoxşaxəli çağırışlara ümumi baxışla və gücümüzü səfərbər etməklə necə cavab verəcəyimiz üzərində düşünməyə imkan yaradacaq. Təşəkkür edirəm.

* * *

İndi isə mən Azərbaycan adından çıxış edirəm.

Cənab sədr, cənab Baş katib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv olmuşdur. Müstəqillik ən yüksək dəyərdir və Azərbaycan xalqının hər zaman azad və müstəqil dövlətdə yaşamaq ümidinin və istəyinin təzahürüdür. Təqribən 30 illik müstəqilliyi dövründə Azərbaycan müxtəlif sahələrdə çox böyük tərəqqiyə nail olmuşdur.

Bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürmüşlər. Lakin Ermənistan öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmişdir. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir.



Ermənistan işğal olunmuş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirmişdir. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan Xocalı soyqırımını törətmişdir. Ondan çox ölkə Xocalı soyqırımını tanımışdır. Ermənistan işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçirir. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv edib.

Ermənistan qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca mülki əhalini qəsdən hədəf alır və təxribatlar törədir. Ermənistan sonuncu təxribat aktını iyul ayında Ermənistan-Azərbaycan sərhədində törətdi. Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə məruz qalması nəticəsində hərbçilərimiz və bir mülki şəxsimiz öldürüldü, mülki infrastruktura ciddi zərər vuruldu. Ermənistanın diversiya dəstəsi təmas xəttini keçməyə cəhd etmişdir. 2020-ci il avqustun 23-də həmin dəstənin başçısı Azərbaycan hərbçiləri tərəfindən yaxalanmışdır. O, dəstə tərəfindən azərbaycanlı hərbçilər və mülki vətəndaşlara qarşı terror aktlarının törədilməsinin planlaşdırıldığını etiraf etmişdir.

Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. O, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir. Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır.

Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir. Ermənistanın müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələyir.

Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde milli qəhrəmana çevrilib. Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya" siyasəti hökm sürür. Gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır. Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub.

Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik.

Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir.

Azərbaycan BMT ilə səmərəli əməkdaşlıq qurmuşdur. Ölkəmiz 155 dövlətin dəstəyi ilə 2012-2013-cü illərdə Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bundan əlavə, hazırda Azərbaycan 120 dövlətin yekdil dəstəyi ilə Qoşulmama Hərəkatına sədrlik edir.

Qoşulmama Hərəkatının COVID-19-a qarşı onlayn formatda Zirvə görüşü təşəbbüsümüz əsasında 2020-ci ilin may ayında keçirildi. Zirvə görüşündə mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizə üzrə dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdim. Bu təşəbbüsü 130-dan çox ölkə dəstəklədi.

BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası cari il iyulun 10-da çağırılmışdır. Hesab edirəm ki, xüsusi sessiya zamanı dövlət və hökumət başçıları səviyyəsində ümumi müzakirələr pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaqdır. Həmçinin onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə böyük töhfə verəcəkdir.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət nəzarət altındadır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə töhfələri etmişik. COVID pandemiyası ərzində Azərbaycan 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Azərbaycan mədəniyyətlərarası dialoqun təşviqində vacib rol oynayır. Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindəndir. 2008-ci ildə Azərbaycan tərəfindən başlanılmış "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi məqsədini daşıyır. "Bakı Prosesi" İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv dövlətləri bir araya gətirib. İki ildən bir Azərbaycanda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma kimi tanınmışdır.

2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanda keçirilmişdir. Bundan əlavə, Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarını və 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını təşkil etmişdir. Həmin idman yarışları da mədəniyyətlərarası dialoqa mühüm töhfə olmuşdur.

Azərbaycan sabit, müasir və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır. Bütün fundamental hüquqlar, o cümlədən ifadə azadlığı, media azadlığı, toplaşma azadlığı, dini etiqad azadlığı və vətəndaş cəmiyyətinin inkişafı tam şəkildə təmin edilir. Bir neçə ay öncə biz geniş siyasi dialoq təşəbbüsünü başlatmışıq. Bütün əsas siyasi partiyalar həmin təşəbbüsü dəstəkləyib. Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafının təmin olunması işinə xidmət edəcəkdir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş və son 17 ildə ümumi daxili məhsul üç dəfə artmışdır. Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi əldə etmiş Azərbaycan qısa vaxt ərzində BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir. "2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı"nda yer almış "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü yerdədir.

Əminəm ki, hazırkı müzakirələrimiz zamanı biz multikulturalizmin və beynəlxalq əməkdaşlığın simvolu olan BMT-yə açıq və güclü dəstək verəcəyik. Azərbaycan BMT-nin daha da güclənməsi, onun beynəlxalq münasibətlərdə əhəmiyyətinin və nüfuzunun yüksəlməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır. Sağ olun.

---

# "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514; 2018, № 12 (I kitab), maddə 2503; 2019, № 3, maddə 381, № 8, maddə 1382; 2020, № 5, maddə 521) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.2. Bu Qanuna uyğun olaraq sığorta ödənişi əmək münasibətlərinə bu Qanunun 13.1-ci maddəsində nəzərdə tutulan əsaslarla xitam verilmiş şəxslərə şamil edilir.".

2. 4.0.5-ci maddədən "sığorta stajından və" sözləri çıxarılsın.

3. 13-cü maddə üzrə:

3.1. 13.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"13.1. Sığorta ödənişini almaq hüququna əmək münasibətlərinə aşağıdakı əsaslarla xitam verilmiş və "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar malikdirlər:

13.1.1. dövlət orqanı və ya hüquqi şəxs ləğv edildikdə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33.1.2-ci maddəsinə və ya Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin a) bəndinə əsasən;

13.1.2. işçilərin və ya dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33.1.3-cü maddəsinə və ya Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin b) bəndinə əsasən;

13.1.3. əmək müqaviləsinin müddəti qurtardıqda, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin b) bəndinə əsasən.";

3.2. 13.2.1-ci maddəyə "işsizliyin" sözündən əvvəl "bu Qanunun 13.1.1-ci və 13.1.2-ci maddələrində nəzərdə tutulan hallarda" sözləri əlavə edilsin və həmin maddədən ", lakin ən azı 3 il" sözləri çıxarılsın;

3.3. 13.2.2-ci maddəyə "işsizliyin" sözündən əvvəl "bu Qanunun 13.1.1-ci və 13.1.2-ci maddələrində nəzərdə tutulan hallarda" sözləri əlavə olunsun və həmin maddədə "3" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin;

3.4. 13.2.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 13.2.3-cü maddə əlavə edilsin:

"13.2.3. bu Qanunun 13.1.3-cü maddəsində nəzərdə tutulan halda işsizliyin başlanmasından əvvəlki ardıcıl gələn 36 təqvim ayı ərzində müddətli əmək müqaviləsi ("Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən haqqı ödənilən ictimai işlərin təşkili istisna olmaqla) üzrə ən azı 35 ay sığorta stajına malik olan əmək qabiliyyətli şəxslərə işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay sonra - bu Qanunun 16-cı maddəsində nəzərdə tutulan minimum sığorta ödənişi məbləğində.";

3.5. 13.5-ci maddədə "İlk dəfə" sözləri "Bu Qanunun 13.2.3-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla, ilk dəfə" sözləri ilə əvəz olunsun və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Qanunun 13.2.3-cü maddəsində nəzərdə tutulan şəxslərə təkrar sığorta ödənişinin təyin olunmasına yol verilmir.";

3.6. 13.6-cı maddəyə "6 ay" sözlərindən sonra ", bu Qanunun 13.2.3-cü maddəsində nəzərdə tutulan şəxslərə 3 ay " sözləri əlavə edilsin;

3.7. 13.8-ci maddəyə "12 ay" sözlərindən sonra ", bu Qanunun 13.2.3-cü maddəsinə uyğun olaraq isə 36 ay" sözləri əlavə edilsin.

4. 14.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"14.1. Bu Qanunun 13.2.1-ci maddəsində nəzərdə tutulan şəxslər üçün sığorta ödənişi sığorta stajından asılı olmayaraq, onların itirilmiş orta aylıq əməkhaqqının 50 faizi məbləğində hesablanır.".

5. 17-ci maddə üzrə:

5.1. 17.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"17.1. Bu Qanunun 13.1-1-ci maddəsinə uyğun olaraq sığorta ödənişi avtomatlaşdırılmış qaydada təyin olunur. Sığorta ödənişinin avtomatlaşdırılmış qaydada təyin edilməsi üçün tələb olunan sənədlər (məlumatlar) tam olmadıqda isə həmin sənədlərin (məlumatların) təqdim olunmasına dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mərkəzləşdirilmiş elektron informasiya sistemi vasitəsilə sığortaolunanın elektron ünvanına və mobil telefonuna (olduğu halda) bildiriş göndərilir.";

5.2. 17.7-ci maddənin birinci və ikinci cümlələrinə ismin müvafiq hallarında "alan şəxs" sözlərindən sonra ismin müvafiq hallarında ", habelə bu Qanunun 13.2.3-cü maddəsində nəzərdə tutulan şəxs" sözləri əlavə edilsin;

5.3. 17.8-ci maddəyə "alan şəxslərin" sözlərindən sonra ", habelə bu Qanunun 13.2.3-cü maddəsində nəzərdə tutulan şəxslərin" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2020-ci il*

---

# "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 163-VIQD nömrəli Qanununun tətbiqi və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 163-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 13.2.3-cü və 17.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13.2.3-cü və 17.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1516, № 12 (I kitab), maddə 2579, 2019, № 6, maddə 1038, № 7, maddə 1217, № 12, maddə 1922; 2020, № 5, maddə 561; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyul tarixli 1081 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə "10.2-ci, 16-cı" sözləri "10.2-ci, 13.2.3-cü, 16-cı, 17.1-ci" sözləri ilə əvəz edilsin;

2.2. 2.7-1-ci bənddə "19.0.2.6-cı maddəsində (ikinci halda)" sözləri "13.2.3-cü, 17.1-ci və 19.0.2.6-cı (ikinci halda) maddələrində" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 163-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2020-ci il*

---

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, №7, maddələr 1247, 1249, № 10, maddə 1608, №11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969,1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473,2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519; Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 92-VIQD və 94-VIQD nömrəli, 31 may tarixli 122-VIQD nömrəli, 2 iyun tarixli 124-VIQD və 126-VIQD nömrəli, 19 iyun tarixli 134-VIQD və 29 iyun tarixli 142-VIQD nömrəli qanunları) 540.5-ci maddəsinin dispozisiyasında "4.6-4.8-ci" sözləri "4.7-ci və 4.8-ci" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 avqust 2020-ci il*

# Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Səbail rayonunun Badamdar qəsəbəsi ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 1,9 milyon (bir milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2020-ci il*

# "Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiyası"ndan irəli gələn bəzi məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 15 yanvar tarixli 59 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiyası"ndan irəli gələn bəzi məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 15 yanvar tarixli 59 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 35) 2-ci hissəsində "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzdində Təhlükəli Tullantıların İdarə Olunması Agentliyi" sözləri "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2020-ci il*

# *Rəcəb Tayyib ƏRDOĞAN:* "Ermənistanın Azərbaycan torpaqlarına hücumlarının qarşısının alınmaması dünyada riyakarlığın əsl nümunəsidir"



Suriya, Liviya, Yəməndə hələ də davam edən humanitar böhranlarla bağlı riyakarlığını və prinsipsizliyini sübut edən ölkələrin dünyaya haqq-ədalət verə bilməyəcəyini bir daha təkrar edirəm. Ermənistanın Azərbaycan torpaqlarına hücumlarının qarşısını almaq üçün addımın atılmaması bunun əsl nümunələrindən biridir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə hökumətinin onun sədrliyi ilə keçirilən növbəti iclasından sonra xalqa müraciətində bildirib.

Rəcəb Tayyib Ərdoğan deyib ki, Türkiyənin heç kəsin torpağında gözü yoxdur. Türkiyə öz hüquq və haqlarını sonadək müdafiə edəcək.

# Azərbaycanın Xarici İşlər nazirinin moldovalı həmkarı ilə telefon danışığı olub

Sentyabrın 21-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun Moldovanın Xarici İşlər və Avropaya İnteqrasiya naziri Oleq Tulea ilə telefon danışığı olub.




Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Moldova tərəfinin təşəbbüsü əsasında keçirilən telefon danışığı zamanı nazir Oleq Tulea Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması münasibətilə təbrik edib və həmkarına xoş arzularını çatdırıb.

Tərəflər ikitərəfli əməkdaşlığın gündəliyinə daxil olan bir sıra məsələlər, o cümlədən siyasi, iqtisadi, ticarət və digər sahələrdə münasibətlərin genişləndirilməsi üzrə fikir mübadiləsi aparıblar. İki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin tezliklə videogörüş formatında keçirilməsinə dair razılıq ifadə edilib. Azərbaycan və Moldova arasında iqtisadi-ticarət sahəsində əməkdaşlığın daha da inkişafı və mövcud potensialdan tam istifadə olunmasının əhəmiyyəti vurğulanıb.

Oleq Tulea COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycan tərəfinin Moldovaya göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib. Tərəflər qlobal sağlamlıq böhranı ilə mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

Nazir Ceyhun Bayramov həmkarına Ermənistanın bölgədə gərginliyi artıran son təxribatçı fəaliyyəti, o cümlədən Ermənistan rəhbərliyinin təhrikçi bəyanat və əməlləri barədə ətraflı məlumat verib, bu kimi fəaliyyətin münaqişənin danışıqlar yolu ilə həllinə zərbə vurduğunu qeyd edib. Bu gün də iki dövlətin sərhədində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində azərbaycanlı hərbi qulluqçunun şəhid olduğunu bildirən nazir bu cinayətin bütün məsuliyyətinin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü vurğulayıb.

Nazirlər telefon danışığı zamanı habelə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# Azərbaycanda koronavirus infeksiyasından 81 nəfər sağalıb, 92 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 81 nəfər müalicə olunaraq sağalıb, 92 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 39 min 280 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 36 min 836 nəfər müalicə olunaraq sağalıb, 576 nəfər vəfat edib. Aktiv xəstə sayı 1868 nəfərdir.




Ötən müddət ərzində 1 milyon 57 min 803 test aparılıb. Dünənki test sayı isə 3011-dir.

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiyada rəsmi səfərdədir

Sentyabrın 21-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Rusiya Federasiyasına rəsmi səfərə gəlib. Bu, Sahibə Qafarovanın Milli Məclisin Sədri kimi Rusiyaya ilk rəsmi səfəridir.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədri Səməd Seyidov, Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, deputatlardan Eldar Quliyev, Mixail Zabelin, Əminə Ağazadə, Tural Gəncəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Moskva şəhərinin "Domodedovo" Hava Limanında





Milli Məclisin nümayəndə heyətini Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədr müavini İlyas Umaxanov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və digər rəsmi şəxslər qarşılayıblar. Sentyabrın 22-də parlamentin Sədri Sahibə Qafarova səfər proqramına uyğun rəsmi görüşlərə başlayacaq.

# Azərbaycan parlamentinin nümayəndə heyəti Moskvada Ulu Öndər Heydər Əliyevin barelyefi önünə əklil qoyub





Sentyabrın 21-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin üzvləri ölkəmizin Rusiyadakı səfirliyində olub, Ümummilli Lider Heydər Əliyevin barelyefi önünə əklil qoyublar. Səfir Polad Bülbüloğlu səfirliyin fəaliyyəti barədə deputatlara məlumat verib.

# Milli Məclisin Gənclər və idman komitəsinin iclası keçirilib

Sentyabrın 21-də Milli Məclisin Gənclər və idman komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis Sədrinin müavini, komitə sədri Adil Əliyev yeni sessiyanın başlaması münasibətilə deputatları təbrik edib, işlərində uğurlar arzulayıb. Diqqətə çatdırıb ki, iclasda 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində görülən işlər barədə hesabata və payız sessiyası üçün iş planının layihəsinə baxılacaq. Komitə sədri qeyd edib ki, ölkəmizdə COVID-19 pandemiyası ilə bağlı mübarizədə Milli Məclis çox böyük işlər görüb.

Milli Məclis Sədrinin müavini vurğulayıb ki, Prezident İlham Əliyevin VI Çağırış Milli Məclisin iclasındakı nitqi tarixi bir çıxış, ümumilikdə, parlament və hər bir deputatın gələcək fəaliyyəti üçün "yol xəritəsi"dir.

Komitə sədri bildirib ki, 2020-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə komitənin 6 onlayn iclası keçirilib. Komitədə iki qanun layihəsi üç oxunuşda müzakirə olunaraq, plenar iclasa tövsiyə edilib və Milli Məclis tərəfindən qəbul olunub. Bu sənədlər bir sıra məcəllələrə və qanunlara dəyişikliklərin edilməsi ilə bağlı olub.

Sessiyalar ərzində komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan, ümumilikdə, 207 məktub və sənədlər daxil olub. Sessiya müddətində 1597 nəfərin sosial şəbəkələr üzərindən elektron müraciəti qeydə alınıb, 1548 məsələ artıq öz həllini tapıb. Daxil olan 204 şifahi müraciətin 146-sı həll olunub. Vətəndaşların müraciətlərində məşğulluq, məişət, sağlamlıqla bağlı problemlər, abadlıq işləri, maddi yardım, bank kreditləri, gənclər və idman sahəsinə aid məsələlər yer alıb.

Komitə sədri məlumat verib ki, onun tərəfindən cari ilin ilk 6 ayı ərzində fərdi olaraq 660 vətəndaş qəbul edilib. Vətəndaşların qaldırdığı məsələlərin bir çoxu öz müsbət həllini tapıb.



Diqqətə çatdırılıb ki, hesabat dövründə pandemiya şəraiti də nəzərə alınaraq komitənin təşkilatçılığı və iştirakı ilə bir çox tədbirlər həyata keçirilib. Belə ki, Gənclər və idman komitəsinin təşəbbüsü ilə İctimai Televiziyanın efirində tanınmış idmançıların iştirak etdiyi "Ulduzla hərəkət et" verilişi fəaliyyətə başlayıb. Mədəniyyət Nazirliyinin və "Kreativ Azərbaycan" portalının elan etdiyi "Evdə qal, evdə yarat" aksiyasında iştirak edən istedadlı gənclərə dəstək verilib. "Yaşamaq yaşatmaq qədər gözəldir" adı altında qanvermə aksiyası keçirilib. "Könüllülər ili" və gənclər təşkilatının fəaliyyətinə həsr olunmuş onlayn konfrans, Yeni Azərbaycan Partiyasının və partiyanın Gəncə şəhər təşkilatının birgə təşəbbüsü ilə "Pandemiya dövründə gənclərin asudə vaxtının təşkili" mövzusunda görüş təşkil olunub. Parlamentdə könüllülərlə işin təkmilləşdirilməsi məqsədilə "Parlament könüllüsü" layihəsi hazırlanıb. Qəbul imtahanlarında yüksək bal toplayan tələbələrlə görüş keçirilib. Bundan əlavə, Gənclər və idman komitəsi və Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Vətənpərvər məktəblilər" layihəsinə başlanılıb.

Bildirilib ki, sessiya ərzində komitə sədri Milli Məclisin Sədri Sahibə Qafarovanın bitərəf deputatlarla onlayn görüşündə, Diasporla İş üzrə Dövlət Komitəsinin, Azərbaycanın Türkiyədəki Səfirliyinin və Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) təşkilatçılığı ilə 28 May - Respublika Gününə həsr edilmiş onlayn simpoziumda iştirak edib. Adil Əliyev "Azərbaycanın qüruru" qızıl ordeni ilə təltif edilib.

15 iyun - Milli Qurtuluş Günü münasibətilə gənclərlə onlayn konfrans, "Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır" adlı esse müsabiqəsinin iştirakçıları ilə onlayn görüş keçirilib. Komitə sədri mütəmadi olaraq videokonfrans vasitəsilə seçiciləri qəbul edib.

Bildirilib ki, Milli Məclis Sədrinin müavini Adil Əliyev cari ilin iyun ayında Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan tərəfindən törədilən təxribatla bağlı bu bölgəyə səfər edib, buradakı vəziyyətlə yaxından tanış olub. Ermənistan tərəfinin iyulun 12-dən başlayaraq ölkəmizin sərhədlərində etdiyi təxribatlar barədə geniş ictimaiyyəti məlumatlandırmaq məqsədilə Almaniyanın Köln şəhərində onun iştirakı ilə tədbir keçirilib.

Komitə sədri bildirib ki, o, hesabat dövründə müxtəlif KİV vasitələrində, televiziya kanallarında ölkədə və dünyada baş verən hadisələrə dair öz fikirlərini açıqlayıb, aktual mövzularda müsahibə və məqalələrlə çıxış edib. Onun Tovuz təxribatı ilə bağlı dünyanın 9 ölkəsində və 30-dan çox media qurumunda türk, ingilis, rus, alman, ərəb və Koreya dillərində məqalələri çap edilib.

Sonra komitənin 2020-ci il payız sessiyası üçün iş planı təqdim edilib. Qeyd olunub ki, sessiya zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin "Könüllülər ili" elan olunması ilə bağlı sərəncamına uyğun olaraq gənclər sektorunda maarifləndirmə işinin təşkili, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət proqramına əsasən normativ-hüquqi aktların gənclərlə bağlı müddəalarının təhlili, bir sıra qanunların, o cümlədən "Könüllü fəaliyyəti haqqında" qanuna dəyişiklik barədə, "Xeyriyyəçilik fəaliyyəti haqqında" və digər qanunların müzakirəsi, Gənclər Gününə həsr olunmuş ictimai dinləmənin keçirilməsi nəzərdə tutulub.

Payız sessiyasında, həmçinin "Deputat könüllüləri" layihəsinin icrası, Milli Məclis könüllülərinin yaradılması istiqamətində tədbirlər, habelə şəhid ailələri, müharibə veteranları, Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvləri, əsgərlər və idmançılarla bir sıra görüşlər planlaşdırılır. Komitə üzvləri eyni zamanda işğal altında olan ərazilərimizdə vəziyyətin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində aktiv fəaliyyət göstərəcəklər.

Könüllülər barədə məlumat verən komitə sədri qeyd edib ki, deputatların yerlərdə könüllülərinin olması, hər bir deputatın ən az 3-5 könüllünü seçməsi çox müsbət hal olardı. Ümumilikdə, 125 deputatın bir yerdə mindən artıq könüllüsünün olması, onların da dövlətin, dövlətçiliyin inkişafında, möhkəmləndirilməsində fəaliyyətə cəlb olunması çox vacibdir.

Sonra Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılov, deputatlar Etibar Əliyev, Vüqar İskəndərov, Cavid Osmanov, Ülvi Quliyev, Şahin Seyidzadə, Sevinc Hüseynova və Müşfiq Cəfərov iclasda çıxış edərək, hesabat və iş planı barədə, bir sıra digər məsələlərlə bağlı öz fikirlərini bölüşüblər.

İclasda komitənin 2020-ci il yaz və növbədənkənar sessiyalarında fəaliyyəti məqbul sayılıb, payız sessiyanın iş planı təsdiqlənib.

# Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi bəyanatlar xarici mətbuatın diqqət mərkəzindədir

Bir sıra ölkələrin aparıcı kütləvi informasiya vasitələri Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibəsini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, xarici KİV-lər diqqəti, ilk növbədə, dövlətimizin başçısının Ermənistan rəhbərliyinin mənfur siyasəti, törətdiyi təxribatlara dair bəyanatlarına cəlb edib.

Türkiyənin "Anadolu" Agentliyi, "Hürriyet", "Milliyet", "Sabah", "Takvim" və digər populyar qəzetləri, TRT HABER, TGRT, HABER TÜRK, A HABER, NTV televiziya kanalları, Rusiyanın TASS, İnterfaks və "RİA Novosti" federal informasiya agentlikləri, "Lenta.ru" "News.ru", "Vesti Kavkaza", "Pravda.ru" saytları, "Moskovski komsomolets" və "Kommersant" qəzetləri, "REN TV", "TVC", "360 tv" telekanalları, Avropa İttifaqının "EU Politics" informasiya-analitik nəşri, Misirin "Asyaelyoum" Agentliyi və "Aldiplomasy" nəşri, Rumıniyanın "News24hours", Ukraynanın "RBK-Ukraina", Qırğızıstanın "Goldenbridgenews" portalları, Gürcüstanın "Interpressnews", "Dalgatv", "24news", "News" saytları Prezident İlham Əliyevin müsahibəsi ilə bağlı materiallar yayıb, sitatlar gətirib.

Yayılan materiallarda Prezident İlham Əliyevin Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, işğal etdiyi ərazilərdə qanunsuz məskunlaşdırma həyata keçirməsi, cəfəng şərtlər irəli sürərək münaqişənin həlli üzrə danışıqlar prosesini pozması, hərbi təxribatların davam edəcəyi təqdirdə işğalçılara daha sərt cavab veriləcəyi barədə fikirləri yer alıb.

Türkiyə KİV-i həmçinin dövlətimizin başçısının müsahibəsində Azərbaycan-Türkiyə münasibətləri ilə bağlı fikirlərini də diqqətə çatdırıb.

❖ ❖ ❖




Rusiyanın kütləvi informasiya vasitələri Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibəsini geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, TASS, İnterfaks və "RİA Novosti" federal informasiya agentlikləri, "REN TV", "TVC", "360 tv" telekanalları və digər KİV Prezident İlham Əliyevin müsahibəsində söylədiyi fikirləri təqdim ediblər.

Materiallarda qeyd olunur ki, Azərbaycan Prezidenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair sülh danışıqlarının faktiki olaraq getmədiyini, Azərbaycanın imitasiya naminə danışıqlarda iştirak etmək niyyətində olmadığını vurğulayıb.

TASS Agentliyinin xəbərində Prezident İlham Əliyevin Ermənistanı danışıqlar prosesini pozmaqda təqsirləndirməsi, Ermənistan rəhbərliyinin cəfəng bəyanatlarının, təxribat xarakterli addımlarının danışıqları mənasız etməsi barədə fikirləri yer alıb.

"TVC" kanalının materialında qeyd olunur ki, rəsmi Bakı ciddi bəyanatlarla çıxış edir. Prezident İlham Əliyev müsahibəsində Ermənistanın işğal altında olan Dağlıq Qarabağı qanunsuz şəkildə məskunlaşdırmasını "cinayət" adlandırıb.

"Pravda.ru" saytı yazır ki, Prezident İlham Əliyev Ermənistana xəbərdarlıq mesajı göndərərək deyib: "Onlar üçün Tovuz hadisələri növbəti dərs oldu. Əgər yeni dərs almaq istəyirlərsə, biz buna hazırıq".

"Moskovski komsomolets" qəzeti Prezident İlham Əliyevin Ermənistanın müharibəyə hazırlaşması, Azərbaycan tərəfində bu barədə ciddi kəşfiyyat məlumatlarının olması barədə fikirlərini tirajlayıb. Qəzet yazır ki, Azərbaycan dövlətinin başçısı ölkəsinin Ermənistanda heç bir məqsədi olmamasını, lakin təxribat davam edirsə, siyasətə yenidən baxılacağını deyib.

"Kommersant" qəzeti Prezident İlham Əliyevin Paşinyanın işğal olunmuş əraziləri qanunsuz məskunlaşdırma siyasətini sərt tənqid etdiyini yazır. Xəbərdə deyilir ki, Azərbaycan Prezidenti bunun Cenevrə Konvensiyasına zidd, cinayət olduğunu vurğulayıb.

❖ ❖ ❖

Rumıniyanın populyar "News24hours" xəbər portalı Azərbaycan Prezidenti İlham Əliyevin Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak etməsi barədə yazıb.

AZƏRTAC xəbər verir ki, portal dövlətimizin başçısının mərasimdən sonra Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibəsində Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti barədə fikirlərinə geniş yer ayırıb.

Portal yazır ki, Prezident İlham Əliyev Ermənistanın aqressiv dövlət olduğunu, bunun Azərbaycana, azərbaycanlılara qarşı aramsız təxribatlarda özünü bir daha göstərdiyini vurğulayıb. Xəbərdarlıq edib ki, Ermənistan çirkin planlarından əl çəkməsə, bu, onlar üçün çox ağır nəticələr verəcək.

"News24hours" Ermənistanın işğal etdiyi ərazilərdə qanunsuz məskunlaşdırma aparması, təcavüzkar ölkənin cəfəng şərtlər irəli sürərək danışıqlar prosesini pozması, hərbi təxribatların davam edəcəyi təqdirdə işğalçılara daha sərt cavab veriləcəyi barədə Azərbaycan Prezidentinin fikirlərini də Rumıniya ictimaiyyətinə çatdırıb.

❖ ❖ ❖

"RBK-Ukrayna" xəbər portalı Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibəsində Ermənistanın təcavüzkar siyasəti barədə fikirlərinə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, portal dövlətimizin başçısının Ermənistanın təxribatçı əməllərinə dair səsləndirdiyi bu fikirlərə diqqət çəkir: "Ermənistan tərəfindən qanunsuz məskunlaşdırma aparılır. Bu, bütün beynəlxalq konvensiyalara ziddir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir, bu, cinayətdir. İşğal edilmiş torpaqlara haradansa insan gətirib qanunsuz məskunlaşdırmaq cinayətdir".

Daha sonra vurğulanır ki, Prezident İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanı Dağlıq Qarabağ münaqişəsinin həllini uzatmaq üçün təxribatlara əl atmaqda təqsirləndirir.

Materialda Azərbaycan Prezidentinin müsahibəsindəki daha bir mühüm məqam diqqətə çatdırılır: "Ermənistan yeni müharibəyə hazırlaşır. Təmas xəttinə yaxın onların qüvvələrinin konsentrasiyası baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik".

## Yeni Azərbaycan Partiyasının gəncləri Ermənistanın təxribatları ilə bağlı bəyanat yayıblar

Yeni Azərbaycan Partiyasının (YAP) gəncləri bəyanat yayıblar. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: "Son zamanlar işğalçı Ermənistanın siyasi, hərbi, informasiya və digər sahələrdə Azərbaycana qarşı yönəldilmiş təxribatları daha intensiv xarakter almışdır. Ermənistanın baş naziri Nikol Paşinyanın danışıqlar prosesini tamamilə pozan bəyanatları bu ölkənin Azərbaycanla cəbhə xəttində və sərhəd bölgələrində mülki Azərbaycan vətəndaşlarının və yaşayış məntəqələrinin hədəfə alınması ilə törədilən hərbi təxribatlarla müşayiət olunmaqdadır.

Bu ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonu istiqamətindəki hücumunun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınıb, düşmənə sarsıdıcı zərbə vurulub. Azərbaycan Ordusu düşmənin növbəti təxribatlarının, eləcə də kəşfiyyat-diversiya qrupunun məkrli əməliyyatının da qarşısını alıb, Ermənistanın sərhəd bölgələrində məqsədli şəkildə təxribatlar törətmək planlarını ifşa edib.

Bununla belə, öz çirkin əməllərindən əl çəkməyən Ermənistan dövləti 30 ilə yaxındır ki, işğal altında saxladığı Azərbaycanın Dağlıq Qarabağ və yeddi ətraf rayonunun ərazilərindən qanunsuz hərbi birləşmələrin və terrorçu təşkilatların sığınacaq və təlim məkanı kimi istifadə etməkdədir. Bu məqsədlə Suriyadan, Livandan muzdlular, ASALA və digər terror təşkilatlarının üzvlərinin işğal olunmuş ərazilərdə kütləvi yerləşdirilməsi həyata keçirilir. Beyrutda baş vermiş məlum partlayışdan sonra Dağlıq Qarabağda erməni ailələrinin məskunlaşdırılması istiqamətində yeni kampaniyaya başlayan Ermənistan Livan ermənilərini də öz işğalçı siyasətinin alətinə çevirməkdədir. Ermənistanın bu fitnəkar əməli BMT və digər beynəlxalq təşkilatlar səviyyəsində qəbul edilmiş sənədlərə tamamilə ziddir.

Ermənistanın bütün təxribatlarına Azərbaycan öz xalqının birliyi, iradəsi, dövlətinin və ordusunun gücü ilə layiqli cavab verir. İyul döyüşlərindən sonra Azərbaycan cəmiyyətinin dövlətə və orduya dəstək nümayişi, on minlərlə gəncin könüllü olaraq orduya yazılması düşməni təşvişə salmışdır. Heç bir təxribat Azərbaycan dövlətini ərazi bütövlüyünün bərpa olunması istiqamətində ardıcıl, qətiyyətli və ədalətli mübarizəsindən döndərə bilməz. Yeni Azərbaycan Partiyasının gəncləri olaraq, işğalçı Ermənistanın istənilən təxribatının qarşısını almağa, düşmənə sarsıdıcı zərbə endirməyə qadir olan qəhrəman Azərbaycan Ordusunun sıralarında Vətənimizin ərazi bütövlüyü naminə Ali Baş Komandan, Prezident İlham Əliyevin hər bir əmrini fədakarcasına yerinə yetirməyə hazır olduğumuzu bir daha bəyan edirik. Qoy yağı düşmən unutmasın ki, sıralarımızdakı yüzlərlə, minlərlə Mübariz İbrahimovlar, Polad Həşimovlar Ali Baş Komandanın bir əmri ilə işğalçıları darmadağın etməyə tam hazırdır".

## Azərbaycanın Baş Prokurorluğu Ermənistan silahlı qüvvələri bölmələrinin təxribatları ilə bağlı məlumat yayıb

"Ermənistan yeni təxribat planları hazırlayaraq əsl niyyətinin münaqişənin sülh vasitəsilə həlli deyil, Azərbaycan torpaqlarının qanunsuz işğalının davam etdirilməsi olduğunu nümayiş etdirməkdədir. Ermənistan tərəfinin cəbhədə törətdiyi təxribatlar və cinayətlər işğalçı ölkənin nəinki danışıqlar aparmağa, əksinə, kəsin eskalasiya yaratmaq niyyətindən xəbər verir".

AZƏRTAC xəbər verir ki, bu barədə işğalçı Ermənistanın son təxribatları ilə bağlı Baş Prokurorluğun Mətbuat xidmətinin yaydığı məlumatda qeyd olunub.

Məlumatda bildirilib ki, işğalçı ölkənin silahlı qüvvələrinin təxribat xarakterli hücumları, atəşkəs rejimini pozması və Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularına qarşı törətdiyi cinayətlər sülh prosesinin üzərindən xətt çəkməklə beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına qarşı açıq hörmətsizlik xarakteri daşıyır.

Təcavüzkar əməllərini həyata keçirməklə, sülh və insanlıq əleyhinə olan cinayətlər törətməyi davam etdirən Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi növbəti dəfə pozularaq 2020-ci il sentyabrın 20-də saat 17 radələrində Tovuz rayonunun Ağdam kəndi ərazisində yerləşən döyüş postuna odlu silahdan atəş açılıb. Nəticədə əsgər Qurbanov Qurban Azad oğlu "sağ çiyin nahiyəsinin kor qəlpə yarası" xəsarəti alıb.

Faktla bağlı Şəmkir Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma) və 29, 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanıb.

Bundan başqa, Ermənistan silahlı qüvvələrinin bölmələri təcavüzkar niyyətini nümayiş etdirməyə davam edərək sentyabrın 21-də saat 09 radələrində Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi atəşə tutub. Düşmən hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət edən hərbi qulluqçusu Məmmədov Elşən Əli oğlu şəhid olub.

Faktla bağlı Şəmkir Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma) və 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə) maddələri ilə cinayət işi başlanıb.

Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məhkəmə məsuliyyətinə verilmələri məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri və institusional tədbirlər görüləcək.

## Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Beynəlxalq Sülh Günü ilə bağlı bəyanat yayıb

"21 sentyabr BMT tərəfindən 1981-ci ildə dünyada sülh və birlik ideallarını gücləndirmək üçün təsis edilmiş Beynəlxalq Sülh Günü kimi qeyd olunur. Təəssüflər olsun ki, COVID-19 pandemiyası səbəbindən artan qlobal təlatümlər fonunda bu dəyərləri gücləndirmək əvəzinə, onsuz da zəifləmiş beynəlxalq təhlükəsizliyi təhdid altına alan sülh defisitinin şahidi oluruq. BMT-nin Baş katibinin qlobal atəşkəs çağırışı etdiyi, dünyanın dörd bir tərəfindəki müharibə edən tərəfləri vahid düşmənə - koronavirusa qarşı birlikdə mübarizə aparmağa, silahlarını yerə qoymağa səslədiyi bir dövrdə Ermənistan bu çağırışa məhəl qoymadan öz işğalçı planlarını həyata keçirmək cəhdlərini davam etdirir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının 21 Sentyabr - Beynəlxalq Sülh Günü ilə bağlı bəyanatında yer alıb.

Bəyanatda daha sonra deyilir: "2020-ci il iyulun 12-də pandemiya dövründə Ermənistan Azərbaycanın həyati əhəmiyyətli kommunikasiya xətlərinin keçdiyi yeni ərazilərini ələ keçirmək üçün hücuma başladı. Bu, son 30 ildə Ermənistanın Azərbaycana qarşı bitməyən təcavüzünün davamıdır. Məhz bu təcavüz nəticəsində Azərbaycan ərazisinin beşdəbiri Ermənistanın işğalı altındadır və yurdlarından didərgin salınmış bir milyona yaxın azərbaycanlı əhali öz əzəli torpaqlarına, ata-baba yurdlarına geri dönə bilmirlər.

Təcavüzkar Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində möhkəmlənmək üçün bu ərazilərdə qanunsuz yaşayış məskənləri salır. Hətta bu yaxınlarda Beyrut limanında baş verən dəhşətli partlayışdan belə öz mənfur əməlləri üçün sui-istifadə edərək, bir sıra erməni ailələrinin Livandan işğal olunmuş Azərbaycan ərazilərinə köçürülməsinə başlayıb. Bu cəhdlər beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması, çox ciddi müharibə cinayətləridir.

Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyan bir yandan riyakarcasına sülh çağırışları edərkən, digər tərəfdən işğal olunmuş Azərbaycan ərazilərində erməni qadınları üçün hərbi təlim keçirir. Buradan belə bir sual doğur: Ermənistanın "sülhsevər" baş nazirinin "sülhsevər" xanımı başqa bir ölkənin ərazisində hərbi forma geyinərək, o ölkənin xalqına silah yönəldərək nəyə nail olmaq istəyir?

Ermənistanın siyasi rəhbərliyinin riyakar yanaşmasından fərqli olaraq, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin etnik təmizləməyə məruz qalmış azərbaycanlı əhalisi kimi, biz keçən illər ərzində Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasının tərəfdarı olmuşuq. İcmamızın münaqişənin həlli üçün konstruktiv dialoq çağırışlarına, təəssüflər olsun ki, Ermənistan tərəfi hər zaman etnik nifrət, hiddət və inkarçılıqla qarşılıq verib.

Sülh şəraitində birgə yaşayışın mümkünlüyünə inandığımızı bəyan edərək, işğalçı qüvvələrini Azərbaycan ərazilərindən geri çəkmək və bizim öz əzəli yurdumuza dönüşümüzə şərait yaratmaq məqsədilə beynəlxalq ictimaiyyəti Ermənistana təzyiq göstərməyə çağırırıq. Çağırışımızın həyata keçməsi, sülhsüz keçirdiyimiz Sülh Gününün əsl mahiyyətini həyatımızda hiss etməyə bizə imkan verərdi".

## Pakistan portalında Azərbaycandakı nümunəvi dini tolerantlıq mühitindən bəhs edən məqalə dərc olunub

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının müəllifi olduğu "Azərbaycan - milli-mənəvi dəyərlərin qorunduğu və dini tolerantlığın yüksək səviyyədə təmin olunduğu ölkə" başlıqlı məqalə Pakistanın beynəlxalq nüfuzlu "parhlo.com" media portalında dərc edilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, məqalədə Azərbaycandakı mövcud nümunəvi dini tolerantlıq mühitindən, milli-mənəvi dəyərlərimizə söykənən, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət-din siyasətinin hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, eləcə də Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətindən, bu ilin iyul ayında Tovuzda baş verən erməni təxribatından bəhs edilir.

Yazıda ölkəmizdə dini tolerantlıq və multikulturalizm ənənələrinin layiqli şəkildə qorunub saxlanılması və bu sahədə ölkə Prezidentinin uğurlu siyasəti vurğulanaraq dövlət başçısının sərəncamı ilə Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması buna praktiki sübut kimi diqqətə çatdırılır.

Eyni zamanda məqalədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanda elm, təhsil və mədəniyyət sahələrində həyata keçirilən layihələrə xüsusi diqqət yetirməsi, milli-mənəvi dəyərlərimizin təkcə Azərbaycanda deyil, həm də dünyada tanıdılmasında xüsusi rol oynadığı, Heydər Əliyev Fondunun dəstəyi ilə çox sayda məscid, kilsə və digər dini abidələrin bərpa edilərək istifadəyə verilməsi barədə dolğun məlumatlar yer alıb.

Sözügedən məqalədə tarixboyu ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, Azərbaycan torpaqlarını işğal etməsi, etnik təmizləmə siyasəti aparması, beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozması, həmçinin dini-mədəni abidələrimizin işğalçılar tərəfindən dağıdılması qəti şəkildə pislənilir. Həmçinin Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoqa xüsusi töhfə verməsi və bu sahədə müxtəlif nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi qeyd olunur, eləcə də milli-mənəvi dəyərlərin, dini tolerantlığın qorunması və təbliği dövlət siyasətinin əsas prioritet istiqamətlərindən olduğu vurğulanır.

Məqalə ilə daha ətraflı aşağıdakı link vasitəsilə tanış olmaq mümkündür:

**https://www.parhlo.com/azerbaiyan-religious-tolerance/.**

## *Leyla ABDULLAYEVA:* "Ermənistan XİN-in açıqlaması bu ölkənin acı həqiqətləri hələ də qəbul etmək iqtidarında olmadığını nümayiş etdirir"

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il sentyabrın 19-da "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirakı zamanı yerli KİV-ə müsahibəsində hər zamankı kimi tarixi həqiqətləri əks etdirən və real faktlara əsaslanan tutarlı cavabları ilə Ermənistanın təcavüzkar siyasətini və bu ölkə rəhbərliyinin həqiqi simasını ifşa etdi. Ermənistan XİN-in bu xüsusda yaydığı ənənəvi saxta və riyakar açıqlama isə bu ölkənin acı həqiqətləri hələ də qəbul etmək iqtidarında olmadığını nümayiş etdirir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın açıqlamasında yer alıb".

Açıqlamada deyilir: "Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini heçə sayaraq təcavüzkar siyasət yürüdən, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini hərbi işğal altında saxlayan və işğal etdiyi ərazilərdə etnik təmizləmə həyata keçirən, bölgədə münaqişə ocağı yaradaraq uzun illərdir ki, dayanıqlı sülhə və təhlükəsizliyə ciddi təhdid törədən bir ölkədir.

Bu ölkənin öncəki kriminal xunta rejimi kimi, hazırkı təxribatçı rəhbərliyi də bölgədəki vəziyyəti və ətrafda cərəyan edən hadisələri düzgün qiymətləndirmək və öz xalqının maraqlarını təmin etməkdən çox uzaqdır. Təəssüf doğuran bir haldır ki, milli maraqlar əsasında müstəqil siyasət yürütmək, bölgədə sülh, təhlükəsizlik və rifahın verə biləcəyi faydanı dərk etmək hələ də Ermənistana nəsib olmayıb.

Ermənistan rəhbərliyinin məsuliyyətsiz və təhrikçi davranışı bölgədə gərginliyi alovlandırır və beləliklə də elə Ermənistanın səbəbkarı olduğu münaqişəni danışıqlar yolu ilə həll etmək imkanını heçə endirir.

Ermənistan baş nazirinin danışıqlar prosesinin formatını dəyişdirmək cəhdləri, danışıqlarla bağlı əsassız qeyd-şərtlər irəli sürməsi, 2019-cu ilin avqustunda səsləndirdiyi cəfəng bəyanatı, 2020-ci ilin 12-16 iyul tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində Azərbaycanın mövqelərinə hücumu, avqustun 23-də Ermənistanın diversiya-kəşfiyyat qrupunun təxribat cəhdi, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətinin nümayişkaranə şəkildə həyata keçirilməsi və digər bu kimi təxribatlar münaqişənin siyasi həllinə birbaşa zərbədir və bunun məsuliyyəti bilavasitə Ermənistan rəhbərliyinin üzərindədir".

## *Ukraynalı hərbçi:* "Azərbaycan Ordusu işğal olunmuş torpaqlarını istənilən an azad etməyə qadirdir"

"Azərbaycan Ordusu işğal olunmuş torpaqlarını istənilən an azad etməyə qadirdir. Ermənistan silahlı qüvvələrinin sentyabrın 21-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində növbəti təxribatı daxili auditoriyaya hesablanmış bir addımdır". Bu fikirləri ukraynalı hərbçi, ehtiyatda olan polkovnik-leytenant Aleksey Şvaryov AZƏRTAC-a məxsusi açıqlamasında söyləyib.

Onun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyanın ölkə daxilində nüfuzu aşağı düşdüyündən o, əhalinin diqqətini münaqişəyə yönəltmək, bununla da hakimiyyətini qorumaq istəyir.

"Bu gün Azərbaycanın nizamlı, müasir silahlarla təchiz olunmuş peşəkar ordusu var. Əgər Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərini sülh yolu ilə azad etmək istəmirsə, Azərbaycan Ordusu müharibə yolu ilə torpaqları azad etməyə hər an hazırdır", - deyə ukraynalı hərbçi əlavə edib.



# İlham Əliyevdən qətiyyət, cəsarət və milli maraqlara sədaqət nümayişi

## Azərbaycan Prezidenti Ermənistanın rəhbərliyinə və işğalçının havadarlarına növbəti sərt xəbərdarlığını ünvanladı

*Əvvəli 1-ci səh.*

Prezident Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızda qanunsuz məskunlaşdırma aparıldığını və bunun bütün beynəlxalq konvensiyalara zidd olduğunu söylədi. Bu prosesi cinayət adlandıran dövlət başçısı bildirdi ki, Paşinyan rejimi şüurlu şəkildə Azərbaycanı təxribata çəkir. Bundan başqa, qədim tarixi şəhərimiz olan Şuşada qondarma rejimin “rəhbərinin” guya andiçmə mərasimi keçirilir. Bu, növbəti təxribatdır. Ona görə də Azərbaycan buna seyrçi mövqe nümayiş etdirə bilməz: “Onlar hesab edirlər ki, biz buna dözəcəyik? Bunu, bu təxribatı kim edir? Onlar edir. Biz heç bir təxribat etmirik. Biz öz mövqeyimizdə dayanmışıq. Ermənistanın baş naziri bizə 7 şərt qoyur. Birincisi, sən kimsən ki, bizimlə şərt dilində danışırsan. Əgər biz onunla şərt dili ilə danışmaq istəsək, onun siyasi ömrü çox çəkməyəcək. Mən demişəm ki, biz bu cəfəng şərtləri rədd edirik. Amma bizim bir şərtimiz var, onlar bizim torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdırlar, necə ki, bu, BMT Təhlükəsizlik Şurasının qətnamələrində öz əksini tapır”.

Görünən odur ki, terrora dövlət səviyyəsində dəstək verən Ermənistanın siyasi hakimiyyəti mövcud status-kvonun saxlanması üçün çirkin təxribatlarından əl çəkmək niyyətində deyil. Qeyri-qanuni məskunlaşdırma, hərbi təxribatlar, silahlanma da bunu bir daha təsdiqləyir.

Ancaq Azərbaycanın və onun Ali Baş Komandanının dəyişməz mövqeyi, yürütdüyü qətiyyətli siyasətin ana xətti birmənalıdır. Münaqişənin həlli istiqamətində aparılan bütün danışıqlarda xalqın istək və arzusunu əsas tutan cənab İlham Əliyev Ermənistana və onun havadarlarına bir daha səsləndi: “Bir daha demək istəyirəm və onlara xəbərdarlıq etmək istəyirəm ki, əgər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün nəticələr çox ağır olacaq. Onlar yeni müharibəyə hazırlaşırlar. Onların təmas xəttinə yaxın qüvvələrinin cəmləşməsi baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik. Onların bütün hərəkətlərini izləyirik. Əlbəttə ki, özümüzü müdafiə edəcəyik. Necə ki, Tovuzda özümüzü müdafiə etdik, bütün başqa istiqamətlərdə özümüzü müdafiə edəcəyik. Onlar üçün Tovuz hadisələri növbəti dərs oldu. Əgər yeni dərs almaq istəyirlərsə, biz buna hazırıq”.

Cənab İlham Əliyev bu cəsarətli fikirləri ilə təkcə Ermənistana yox, təcavüzkara havadarlıq edən, bu ölkə ilə dostluq münasibəti quran tərəfdaş dövlətlərə də mesaj ünvanladı. Prezident növbəti dəfə milli maraqlar naminə qətiyyətli mövqeyini ifadə etdi, əzm və iradə göstərdi. Hər zamankı kimi bu dəfə də açıq danışaraq bir daha nümayiş etdirdi ki, milli mənafe ən vacib məsələdir, burada qapalı və qaranlıq heç bir məqam ola bilməz.

Bir sözlə, əminliklə deyə bilərik ki, dövlət başçısının həyata keçirdiyi siyasət milli maraqlarımızı qoruyan qətiyyətli və prinsipial diplomatiyadır.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Ermənistanı sarsıdıcı zərbələr gözləyir

*Əvvəli 1-ci səh.*

Bundan əvvəl Ermənistan Suriyada yaranmış ağır vəziyyətdən istifadə edərək orada yaşayan ermənilərin ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrinə köçürülməsinə cəhd edib. İndiki halda da Şuşa şəhərinə Livan ermənilərinin köçürülməsi ilə bağlı videolar yayılıb. Faktiki olaraq burada məqsəd işğal olunmuş ərazilərdə həyata keçirilən qanunsuz etnik təmizləmə siyasətini davam etdirmək, sülh danışıqlarını pozmaq və status-kvonu möhkəmləndirməkdir.

Digər tərəfdən, hərbi müstəvidə Azərbaycan Ordusunun qüdrəti qarşısında uğursuzluğa düçar olmuş N.Paşinyan hakimiyyəti revanş əldə etmək niyyəti güdür. Yerli telekanallara müsahibəsində Prezident İlham Əliyev bu xüsusda deyib: *“Paşinyan çevriliş nəticəsində hakimiyyətə gələndən bir ay sonra uğurlu Günnüt əməliyyatı keçirildi. Günnüt əməliyyatı onların növbəti məğlubiyyəti idi... Biz istədiyimizə nail olmuşuq. İkincisi, yenə də deyirəm, biz istəmədik ki, bu yolla əvvəlki hakimiyyətin əlinə bir arqument verək. Çünki o vaxt Ermənistanda vəziyyət lap ağır idi, indi də sabit deyil. Əgər o vaxt bu, dərhal bilinsəydi, ola bilər ki, hansısa daxili revanş hissləri üzə çıxa bilərdi. Amma sonra ondan əvvəlki hakimiyyətin jurnalistləri gəldilər gördülər ki, onların kəndinin başında Azərbaycan əsgərləri oturublar və onlara baxırlar. Yavaş-yavaş başladılar bu mövzunu istismar etməyə. Sonra artıq bu, üzə çıxanda mən də dedim ki, indi açıqlama verin nə etmişik, qoy hamı bilsin. Oraya çəkiliş qrupu da getdi, çəkilişlər etdi”.*

Bu gün işğalçı Ermənistanda pandemiya fonunda iqtisadi tənəzzül daha da dərinləşib, ölkənin xaricdən iqtisadi asılılığı artıb. Xarici borc çoxalıb və onu qaytarmaq üçün ölkə lazımi resurslara malik deyil. Bir məqamı da xüsusi qeyd edək ki, Ermənistanın belə acınacaqlı vəziyyətə düşməsinin başlıca səbəbi işğalçılıq siyasəti, Azərbaycanın təcavüzkara qarşı gördüyü tədbirlərdir. N.Paşinyanın hakimiyyətə gəlməsindən 2 il keçməsinə baxmayaraq, ölkədə pandemiya fonunda yeni parçalanmalar, gərginliklər müşahidə edilməkdədir. Paşinyanın hakimiyyətə gəlişi zamanı verdiyi vədlərin yerinə yetirilməsinin mümkünsüz, əslində, cəmiyyətdə baş nazirə inamın sürətlə əriyib yox olduğunu xüsusi vurğulamalıyıq. Bu gün işğalçı ölkədəki sosial vəziyyət hakimiyyət dəyişikliyindən əvvəlki vəziyyətdən daha gərgindir. İnsanlar gündəlik çörək problem ilə üzləşiblər. On minlərlə erməni işini itirib və onların sayı sürətlə artmaqda davam edir. Ermənistan baş naziri isə bu uğursuzluqları unutdurmaq üçün dövlət sərhədində və cəbhədə təxribatlara əl atır.

Prezident İlham Əliyev qeyd edib ki, Paşinyanın ikinci məqsədi hər hansı bir qələbənin qazanılması idi. İyul hadisələrini onlar məhz belə planlaşdırmışdılar. Çünki onlar bilirdilər ki, Azərbaycan dövlət sərhədinin böyük hissəsində sərhəd qoşunları yerləşib. Bu da bizim niyyətimizi göstərir: *“...Onu göstərir ki, bizim artıq o sərhəddə ordu yox, sərhədin böyük hissəsində sərhədçilər yerləşir. Hesab edirlər ki, onlar rahatlıqla oradan keçib hansısa torpağı zəbt edə bilərlər. Ondan sonra belə raportlar verə bilərlər ki, onlar Azərbaycan torpağını işğal ediblər. Necə ki, onların müdafiə naziri demişdi ki, yeni ərazilər uğrunda yeni müharibə olacaq. O da təxribatın bir təzahürüdür. Amma o da alınmadı. Bir santimetr belə girə bilmədilər. Biz onlara sarsıdıcı zərbələr endirdik. O zərbələrin bəziləri internetdə göstərildi. Dəqiq atəşlə onların dayaq məntəqələri məhv edildi. Bir daha demək istəyirəm ki, artıq Ermənistan ərazisinə keçmək üçün bizə heç bir hərbi maneə yoxdur”.*

Ermənistan tərəfi bu mesajdan nəticə çıxararaq öz çirkin və təxribatçı əməllərindən çəkinməlidir. Əks halda bunun nəticəsi Ermənistan üçün çox ağır olacaq.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Güclü dövlətin qüdrətli ordusu

*Əvvəli 1-ci səh.*

Bu dövrdə Azərbaycanda ordu quruculuğu bir gün belə dayanmayıb, əksinə, daha geniş vüsət alıb, sürətlənib. Bunun nəticəsidir ki, Silahlı Qüvvələrimizin, hər bir qoşun növünün döyüş imkanları ən müasir standartlar səviyyəsinə çatdırılıb. Bu məqsədlə inkişaf etmiş hərbi sənaye kompleksinə malik olan dövlətlərdən müasir silah və texnikalar alınaraq ordumuzun arsenalına daxil edilib.

Ordumuzun inkişafı və arsenalını gücləndirməsi hərbi sahə üzrə ixtisaslaşmış reytinq agentliklərinin də diqqətindən yayınmayıb. İndiyədək paradlarda nümayiş etdirilən hərbi texnikalar, düşmənə müasir döyüş imkanları ilə zərbələrin vurulması Silahlı Qüvvələrimizin ən güclülər sırasına daxil olmasını şərtləndirib.

## Düşməni lərzəyə salan təlimlər

Ordunun döyüş qabiliyyətini yüksəldən amillərdən biri hərbi təlimlərdir. Hər bir təlimdə çəkilən zəhmət, tökülən tər gələcək qələbələrin təməlidir. Təlim şəxsi heyətin döyüş ruhunun praktik artırılması, həm də silah və texnikadan istifadə qaydalarını mükəmməl mənimsəməkdir. Bu gün Azərbaycan Ordusunun hərbi təlimlərində həm də ən müasir silah və texnikalardan istifadə olunur ki, bu da qoşun növlərinin döyüş təcrübələrinin artırılmasına xidmət edir.

Təsdiq edilmiş plana əsasən, ordumuzun il ərzində çoxsaylı təlimləri keçirilir. Ən mühümü odur ki, Silahlı Qüvvələrimizin inkişaf göstəricilərinə uyğun olaraq təlimlərin sayı son illərdə xeyli artıb. İndi bu təlimlərdə ordumuzun bölmələri döyüş şəraiti üçün xarakterik olan ən vacib vəzifələrin yerinə yetirilməsini məşq edirlər.

Başqa bir mühüm məsələ isə Azərbaycan Ordusunun hərbi təlimləri Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə birgə keçirməsidir. Türkiyə ilə hərbi əməkdaşlıq müdafiə sahəsinin demək olar ki, bütün istiqamətlərini əhatə edir. Qardaş dövlətin NATO-nun üzvü olması, hərbi qüdrətinə görə dünyanın ən güclüləri sırasında yer alması Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki belə ordu ilə birgə hərbi təlimlərin keçirilməsi Azərbaycan Ordusunun ən müasir döyüş imkanlarını mənimsəməsində böyük rol oynayır.

Bu ilin iyul ayının sonlarından etibarən hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının mühüm göstəricisi kimi tarixə düşdü. Ən əsası Azərbaycanın Tovuz qələbəsindən sonra belə bir möhtəşəm təlimin keçirilməsi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilən mühüm hərbi mesaj oldu. Dərin narahatlıq keçirən Ermənistan və onun havadarları bir daha gördülər ki, Türkiyə bu məsələdə Azərbaycanın yanındadır.

Sentyabrın 19-da yerli televiziyalara müsahibə verən Prezident İlham Əliyev bu barədə deyib: *“Bu təlimlər müntəzəm olaraq keçirilir. Hər il Azərbaycan hərbçilərinin xarici ölkələrlə birgə keçiriləcək təlimlər planı təsdiq edilir. Bütün bu təlimlər plan əsasında həyata keçirilir. Deməliyəm ki, son illər ərzində Prezident Rəcəb Tayyib Ərdoğanın və mənim birgə göstərişimizlə təlimlərin sayı ciddi şəkildə artmışdır. Keçən il 10-dan çox birgə təlim keçirilmişdir, həm Türkiyədə, həm Azərbaycanda, o cümlədən “TurAz Qartalı” təlimi birinci dəfə keçirilmir. Hər zaman “TurAz Qartalı” keçiriləndə Türkiyədən “F16”lar Azərbaycana gəlirdi və bizim təyyarələrlə, pilotlarımızla birlikdə birgə təlimlər keçirirdik. Naxçıvanda təlimlər keçirilmişdir və təlimlərin birində Türkiyənin Müdafiə naziri iştirak etmişdir. Yəni, burada qeyri-adi bir şey yoxdur. Bəli, bu, Tovuz hadisələrinə təsadüf edib. Bu, təsadüfidir, ya təsadüfi deyil, Ermənistan özü baş çıxarsın. Amma bu təlimlər bir daha birliyimizi göstərir”.*

## Ermənistan qarşımızda duruş gətirə bilməyəcək

Beynəlxalq münasibətlər sisteminin bugünkü mənzərəsi də göstərir ki, güc amili yaranan problemlərin həllində əsas rol oynayan vasitədir. Artıq elə bir dövrə gəlib çatmışıq ki, beynəlxalq hüquq və onun prinsiplərinin toxunulmazlığı aktuallığını itirib. Ayrı-ayrı ölkələrin müxtəlif bəhanələrlə xarici hərbi müdaxilələrə məruz qalması bunun təzahürüdür.

Azərbaycan beynəlxalq hüququn subyekti kimi dünyada gedən bu cür neqativ prosesləri yaxından izləyir və özü üçün nəticələr çıxarır. Çünki respublikamız artıq 30 ildən artıqdır ki, hərbi təcavüzə məruz qalıb, torpaqlarımız işğal edilib. Bütün bu hadisələrdə ilk gündən beynəlxalq hüquq Azərbaycanın tərəfində olub. Dağlıq Qarabağ münaqişəsinin sülh danışıqları yolu ilə həlli istiqamətində atılan siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır. Lakin təəssüflə qeyd etməliyik ki, Minsk qrupu vasitəsilə aparılan sülh danışıqları nəticəsiz qalıb və haqlı olaraq bu formata və tərkibə inam itib.

Ona görə də Azərbaycanda ordu quruculuğu məsələləri daim dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Reallıq ondan ibarətdir ki, yüksək keyfiyyət göstəricilərinə malik ordumuzun qarşısında Ermənistan duruş gətirə bilməyəcək. Bunu vaxtaşırı ermənilərin özləri də etiraf edirlər. Beləliklə, Azərbaycan özünün tarixi torpaqları olan Qarabağda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. *“Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu haqda kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”*, - deyə Prezident İlham Əliyev bildirib.

Güclü dövlətin əsas göstəricilərindən biri güclü ordudur. Bu baxımdan Azərbaycanın güclü orduya malik olması həm də dövlətimizin qüdrətli olması deməkdir. Bu ordu müasir texnika ilə təchiz edilmiş, qarşısında duran bütün vəzifələri həll etməyə qadir, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik peşəkar və mübariz hərbi gücdür. Ordu quruculuğu prosesi isə davamlıdır. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında bu işlər səngimədən, dayanmadan, sürətlə və uğurla davam etdirilir. Təbii ki, ölkəmizin maliyyə imkanları artıqca ordumuz daha da qüdrətlənəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Azərbaycan Ordusunun şəhid hərbçisi ilə vida mərasimi keçirilib

Sentyabrın 21-də saat 09:20 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində düşmənin növbəti təxribatı nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, kiçik çavuş Məmmədov Elşən Əli oğlu şəhid olub.





AZƏRTAC xəbər verir ki, şəhid hərbçimizin nəşi doğulub boya-başa çatdığı Tovuz rayonunun Qaziqulu kəndinə gətirilib. Şəhidimizin cənazəsi böyük izdihamla qarşılanıb.

Vida mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının nümayəndələri, kənd sakinləri, rayon ictimaiyyətinin təmsilçiləri və şəhidin ailə üzvləri iştirak ediblər.

Sonra hərbçimizin nəşi Tovuz şəhər qəbiristanlığında torpağa tapşırılıb, məzarı üzərinə tər qərənfil və qızıl güllər düzülüb.

Şəhidin tabutu üzərindəki Azərbaycanın üçrəngli bayrağı onun azyaşlı oğluna təqdim edilib.

Qeyd edək ki, şəhid hərbçinin 3 azyaşlı oğlu var.

# Azərbaycan Ordusunun bir hərbi qulluqçusu şəhid olub

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistanın son zamanlar qoşunların təmas xəttində və dövlət sərhədi istiqamətində vəziyyəti gərginləşdirməsi ilə bağlı bəyanat yayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda bildirilib ki, Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində və Ermənistanla dövlət sərhədi istiqamətində vəziyyət düşmən tərəfindən məqsədyönlü şəkildə getdikcə daha da gərginləşdirilir. Son zamanlar Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulması hallarının artması, təmas xəttinə yaxın yaşayış məntəqələrimizin, mülki əhalinin və infrastrukturun müntəzəm atəşə tutulması, daha iriçaplı silahlardan istifadə olunması, mövqelərimizə qarşı keçirilən kəşfiyyat-təxribat fəaliyyətləri, o cümlədən pilotsuz uçuş aparatlarının (PUA) geniş tətbiqi cəbhədə vəziyyətin ciddi kəskinləşməsinə səbəb olub.

Bütün hallarda Azərbaycan Ordusunun qoşun növlərinin tətbiqi ilə düşmən təxribatlarının qarşısı alınıb və o, ağır itkilərə məruz qalıb. Belə ki, Hava Hücumundan Müdafiə bölmələrimizin fəaliyyəti nəticəsində düşmənin daha bir taktiki PUA-sı məhv edilib.

Sentyabrın 21-də saat 09:20 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində düşmənin növbəti təxribatı nəticəsində isə Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məmmədov Elşən Əli oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir!

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyan edib ki, cəbhədə vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Atəşkəs rejimi 30 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Qanlı təxribatın törədilməsi Ermənistan rəhbərliyinin əsl niyyətinin sülh yox, təcavüzün davam etdirilməsi olduğunun bariz nümayişidir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində törətdiyi növbəti təxribata dair açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada Ermənistan silahlı qüvvələrinin sentyabrın 21-də Ermənistan-Azərbaycan beynəlxalq sərhədinin Azərbaycanın Tovuz rayonu istiqamətində növbəti təxribata əl atdığı bildirilir. Qeyd edilir ki, düşmən qüvvələrinin atıcı odlu silahdan açdığı atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Məmmədov Elşən Əli oğlu şəhid olub.

Açıqlamada deyilir ki, Ermənistan XİN-in bölgədə sülh və regional təhlükəsizliyin təminatından bəhs edən ən son açıqlaması və bu ölkənin Xarici İşlər nazirinin münaqişənin sülh yolu ilə həllinə çağırış edən bəyanatının ardınca bu qanlı təxribatın törədilməsi Ermənistan rəhbərliyinin əsl niyyətinin sülh yox, təcavüzün davam etdirilməsi olduğunun bariz nümayişidir.

Düşmən qüvvələrinin Ermənistan-Azərbaycan sərhədində törətdiyi bu qanlı cinayətin bütün məsuliyyətini Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır.

Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyaraq, dövlətimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidimizə Allah rəhmət eləsin!

# “Abşeron”la ölkəmizin neft-qaz sənayesində daha bir səhifə açılır

## Prezident İlham ƏLİYEV: “Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır”

*Əvvəli 1-ci səh.*



Təsadüfi deyil ki, Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına verdiyi müsahibədə **“Abşeron” yatağının dəniz əməliyyatlarının təməlinin qoyulmasını** əhəmiyyətli hadisə kimi dəyərləndirib.

“Abşeron” qaz-kondensat yatağı üzrə ilk dəfə kontrakt xarici tərəfdaşlarla hələ 1990-cı illərin sonlarında imzalanmışdı. “Şahdəniz” qaz-kondensat yatağı üzrə müqavilədən sonra bu kontraktın da imzalanması onu göstərirdi ki, Azərbaycan artıq neft ölkəsindən qaz ölkəsinə keçid alır.

Təəssüf ki, müəyyən müddətdən sonra birinci kontrakta xitam verildi. Çünki qazılan kəşfiyyat quyusu boş çıxdı. Tərəfdaşlar görkəmli geoloqumuz Xoşbəxt Yusifzadənin quyunun yerinin düzgün seçilmədiyi barədə fikri ilə razılaşmadılar. Ona görə də müsbət nəticə alınmadı.

Sonrakı illərdə yatağa Fransanın tanınmış “Total” şirkəti maraq göstərdi və SOCAR-la bu şirkət arasında müvafiq sənədlər imzalandı, praktiki işlər aparılmağa başlandı. Nəticədə böyük qaz-kondensat yatağı aşkarlandı.

Dövlət başçısı “Abşeron” haqqında danışarkən demişdir: “Beləliklə, bizim neft-qaz potensialımızın inkişafı üçün çox böyük resurs əldə edildi. Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları vardır. Amma mən hesab edirəm ki, daha çox olacaq. Çünki artıq bizdə olan təcrübə onu göstərir ki, ehtimal olunan resurslardan daha böyük resurslar üzə çıxır və 100 milyon ton kondensat - bu da xam neftə bərabər olan bir məhsuldur. Beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır. Onu da bildirməliyəm ki, “Abşeron”un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatlara istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə hasil olunacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki artıq bu yatağın tam işlənməsi mərhələli yollarla öz həllini tapacaq.”

Deməli, “Abşeron” eyni zamanda neft hasilatımızın sabit qalmasına böyük dəstək verəcək. Belə ki, yataqdan çıxarılan kondensat Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinə vurularaq dünya bazarlarına göndəriləcək. Beləliklə, “Azəri-Çıraq-Günəşli”də mövcud olan və davam edən təbii hasilat tənəzzülünü “Abşeron” yatağı bir qədər kompensasiya edəcək.

“Abşeron” layihəsi “Neft Daşları” ilə bağlı olduğundan bu, dəniz mədəninə də yeni həyat verəcək. Daha önəmli bir cəhət, qeyd edildiyi kimi, sözügedən qurğuların Azərbaycanın özündə istehsal olunmasıdır.

“Abşeron” layihəsinin gerçəkləşməsi ölkənin həyatında neft-qaz amilinin önəmini bir daha təsdiqləyəcək. Dövlət başçısı yataqdan ilk qazın və kondensatın nəzərdə tutulduğu vaxt - iki ildən sonra çıxarılacağına əminliyini bildirib.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Yumşalmalar daha ciddi qorunma tədbirlərinə ehtiyac yaradır

## Pandemiya qaydalarına əməl olunmasa, yoluxma halları arta və karantin rejimi yenidən sərtləşdirilə bilər

Respirator virus infeksiyalarının artdığı payız-qış mövsümünün gəlməsi aylardır bütün düzəni alt-üst olan dünya ölkələrinin narahatlığını artırıb. Yumşalma tədbirlərindən sonra yoluxma sayının artması ilə əlaqədar bəzi dövlətlərin karantin rejimini yenidən sərtləşdirməsi də ekspertlərin proqnozlarının özünü doğrultduğunu göstərir.



Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropadakı regional direktoru Hans Kluge jurnalistlər üçün təşkil olunan brifinqdə Avropada COVID-19 infeksiyasının yayılması ilə bağlı vəziyyətin ağırlaşmağa başladığını bildirib: “Gözümüz önündə ciddi vəziyyət cərəyan edir. Avropada gündəlik yoluxma hallarının miqdarı pandemiyanın qitədə pik həddə çatdığı mart ayındakı səviyyəni ötüb. Son iki həftə ərzində Avropa ölkələrinin yarıdan çoxundan yoluxma hallarının 10 faizdən çox artdığı barədə məlumatlar daxil olur”.

Virusla mübarizədə bütün Avropa ölkələrini həmrəyliyə çağıran Hans Kluge bildirib ki, yoluxma hallarının əksəriyyəti 25-41 yaş arası insanlarda qeydə alınır.

Bəli, hazırda dünyada pandemiya ilə bağlı vəziyyət ürəkaçan deyil. COVID-19-a yoluxanların sayı 30 milyonu, infeksiya qurbanlarının sayı isə 1 milyonu ötüb. Bir sıra məhdudiyyətləri aradan qaldıran Avropa ölkələrində yoluxmaların sayında artım müşahidə edildiyindən yenidən qadağaların tətbiq olunmasına başlanılıb.

### Bəzi vətəndaşlarda psixoloji olaraq arxayınlıq hissi yaranır

Görülən mühüm işlər nəticəsində Azərbaycanda vəziyyət ətraf ölkələrlə müqayisədə xeyli yaxşıdır. Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə qlobal pandemiyaya qarşı həyata keçirilən operativ və çevik tədbirlər nəticəsində ölkədə sanitar-epidemioloji vəziyyət nəzarət altına salınıb, kütləvi yoluxmanın qarşısı alınıb. Sevindirici haldır ki, son iki ayda Azərbaycanda pandemiya ilə mübarizədə çox ciddi uğurlar əldə olunub. Yoluxma statistikasında kəskin azalma və stabillik yaranıb. Nazirlər Kabineti yanında Operativ Qərargah bunu nəzərə alaraq vaxtaşırı yumşalmalar barədə qərarlar verir və məhdudiyyətlər aradan qaldırılır. Lakin o da sirr deyil ki, yumşalma tədbirləri bəzi vətəndaşlarda psixoloji arxayınlıq hissi yaradır. Metropolitenin yenidən fəaliyyət göstərməsi, rayonlararası və şəhərlərarası gediş-gəlişin açılması, kafe-restoranların işləməsi, məktəblərdə əyani təhsilin bərpası virusun olmadığı və ya azaldığı kimi anlaşılır. Halbuki mütəxəssislər də xəbərdarlıq edirlər ki, yumşalma tədbirləri nəticəsində insanlar arasında ünsiyyət və təmas halları çoxalır, bu da yoluxmaların sayının artımına birbaşa təsir edir. Ona görə də karantin rejimində yumşalmalar baş verdikcə əksinə, daha ciddi qorunma tədbirlərinə ehtiyac yaranır. Karantin qaydalarına riayət etmək pandemiya tam bitənə və ya kütləvi peyvəndlənmə həyata keçirilənə qədər aktual olaraq qalmalıdır.

Hazırda dünyada koronavirus əleyhinə yüzlərlə peyvənd hazırlanır. Onlardan yalnız bir neçəsi klinik sınaqlardan keçirilərək hazırlıq mərhələsinə gətirilib. Hələlik peyvənddən necə istifadə olunması və kimlərə tətbiq edilməsi üzərində müzakirələr aparılır. Tətbiq olunan vaksin effektli olmalı, yan təsirləri və fəsadları az olmalıdır. Vaksin, ilk növbədə, risk qrupundan olanlar üçün nəzərdə tutulur. Sonrakı mərhələdə isə əhalinin müəyyən qismi vaksinasiya ediləcək. Buna isə xeyli zaman lazımdır. O vaxta qədər isə təhlükəli virusdan qorunmağın yeganə və ən səmərəli yolu karantin rejimi qaydalarını ciddi şəkildə qorumaq - maska taxmaq, sosial məsafə saxlamaq və gigiyenaya riayət etməkdir. Əks təqdirdə yenidən arzuolunmaz statistika ilə qarşılaşa bilərik.

### Soyuq aylarda koronavirusa yoluxanların sayı artacaq

Azərbaycanın baş infeksionisti Cəlal İsayev də noyabrda koronavirusa yoluxanların sayının artmasının gözlənilən olduğunu açıqlayıb. O, bunun səbəbini soyuq aylarda respirator virus infeksiyalarının baş vermə hallarının artması ilə əlaqələndirib: “Sözügedən infeksiyaların artması koronavirusun da artmasına gətirib çıxara bilər. İki virusun yanaşı olması isə xəstəliyin daha ağır gedişlə müşahidə edilməsinə səbəb olacaq”.

C.İsayev qeyd edib ki, yoluxma sayının çoxalması və ya azalması birbaşa insanlarla əlaqəlidir. İstər ən sərt, istərsə də hazırkı yumşalmalarla olan karantin tədbirlərində insanlar diqqətli olmasalar, nəticə dəyişməyəcək. Hər kəs karantin tədbirlərinə maksimum riayət etməlidir. Maskalar taxılsa, sosial məsafə gözlənilsə, əllər tez-tez yuyulub spirtlənsə, sıx yerlərdə toplaşmağın qarşısı alınsa, yoluxma sayı artmayacaq. Bu qaydalara əməl etməsək isə, ən sərt karantin rejiminin belə faydası olmayacaq.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) Elmi Komitəsinin sədri, professor Akif Qurbanov da bildirib ki, soyuq aylarda digər respirator virus infeksiyaları artacaq. Həmin xəstəliklə üzləşənlərdə COVID-19-a yoluxmanın baş verməsi xəstəliyin daha ağır keçməsi üçün zəmin yaradacaq. Ona görə də bütün dünyada bu il qrip əleyhinə vaksinasiyanı çox ciddi şəkildə həyata keçirmək nəzərdə tutulub. Payız-qış mövsümündə başlıca məqsəd mövsümi qripdən qorunmaq və koronavirusa yoluxduqda ağırlaşma halının qarşısını almaqdan ibarət olacaq. Ona görə də iki infeksiyanın birlikdə rast gəlinib daha ağır nəticələrə səbəb olmaması üçün çalışmaq lazımdır.

### Dövlətə ən böyük dəstək karantin qaydalarına əməl etməkdir

A.Qurbanovun sözlərinə görə, yaxın günlərdə respublikaya dördvalentli qrip vaksinləri gətiriləcək. Dördvalentli həmin vaksinin tərkibində qrip törədicisinin ən geniş yayılmış dörd ştamı var, heç bir yan təsiri və fəsadı yoxdur. Vaksinasiya edilənlər qrip xəstəliyi ilə üzləşməyəcək: “İlk növbədə, risk qrupuna daxil olanların, yəni qrip, o cümlədən COVID-19-u çox ağır keçirənlərin vaksinasiyası nəzərdə tutulur. Həmin qrupa yaşı 65-dən yuxarı olanlar, xroniki, ağciyər, ürək-damar, onkoloji xəstəlikləri olanlar, şəkərli diabetdən əziyyət çəkənlər aiddir. Risk qruplarında olanlar arasında iki infeksiyanın birlikdə rast gəlinməsinin qarşısı alınsa, səmərəli nəticələr gözləməyə dəyər. Uzun illərdən bəri istifadə olunan qrip vaksini çox az yan təsirə malikdir, ondan ehtiyatlanmaq lazım deyil. Aparılan müzakirələr nəticəsində inaktivləşdirilmiş, yəni öldürülmüş vaksinlərin alınması qərara alınıb. Həmin vaksinlərin içərisində heç bir canlı törədici, virus yoxdur. Məqsəd vaksinasiya olunmuş orqanizmdə həmin viruslara qarşı immunitet əmələ gətirməkdən ibarətdir. Oktyabrın axırlarından başlayaraq həmin məsələlərin öz həllini tapması üçün tədbirlər görüləcək”.

Azərbaycan dövləti hər bir sakininin sağlamlığı, rifahı, təhlükəsizliyinin etibarlı təmini üçün lazım olan bütün tədbirləri görür. Pandemiya ilə mübarizədə qəbul edilən bütün qərarların qəbulunda məhz bu məsələ prioritet kimi önə çıxarılıb. Lakin o da həqiqətdir ki, görülən tədbirlərin tam effektli olması hazırda vətəndaş məsuliyyətindən birbaşa asılıdır. Hər kəs başa düşməlidir ki, vətəndaş olaraq dövlətə ən böyük dəstək tətbiq olunan karantin qaydalarına ciddi şəkildə əməl etməkdən ibarətdir. Əks halda yoluxma halları yenidən artacaq, nəticədə isə karantin rejiminin yenidən sərtləşdirilməsinə ehtiyac yaranacaq. Ona görə də çox sadə qaydalara əməl etməklə özünüzü, ailənizi, ətrafınızı qoruyun ki, həyat tez bir zamanda əvvəlki normal halına qayıtsın.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

Əhmədiyyə Cəbrayılov-100

# Qəhrəmanlıq nümunəsi



İkinci Dünya müharibəsi dövründə antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun anadan olmasından bir əsr ötür. Azərbaycan xalqının bu igid övladının 100 illik yubileyinin qeyd olunması ilə bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncamda Əhmədiyyə Cəbrayılovun bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə çalınmasında böyük xidmətlər göstərmiş Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçdiyi vurğulanıb: “1941-ci ildə müharibənin başlanması ilə ölkənin müdafiəsi üçün könüllü cəbhəyə yollanan Əhmədiyyə Cəbrayılov daha sonralar Fransa müqavimət hərəkatında fəal iştirak etmişdir. Əhmədiyyə Cəbrayılovun yüksək bacarıqla həyata keçirdiyi çoxsaylı kəşfiyyat əməliyyatlarındakı misilsiz şücaətləri layiqincə qiymətləndirilmişdir. Fransa dövlətinin orden və medalları ilə təltif edilmiş həmvətənimizin eyni zamanda müqavimət hərəkatı iştirakçıları sırasında xatirəsi əbədiləşdirilmişdir”.

Müharibə bir çoxu kimi onu da gənc yaşında qanlı-qadalı günlərə ürcah etdi. Əhmədiyyə Cəbrayılov rəşadətli döyüş yolu keçib. Azərbaycan xalqının bu cəsur oğlu Fransa müqavimət hərəkatının qəhrəmanı kimi də adını tarixə yazıb.

O, 1920-ci ildə Şəki rayonunun Oxud kəndində dünyaya gəlib. 1935-ci ildə Şəki Kənd Təsərrüfatı Texnikumuna daxil olaraq aqronom ixtisası üzrə təhsil alıb. Texnikumu bitirdikdən sonra təyinatla Qubaya, kolxozda işləməyə gedib.

Bir müddət sonra hərbi xidmətə çağırılan Əhmədiyyə Cəbrayılov Nevinnomısk Təyyarəçilik Məktəbinə göndərilib. Bir neçə ay hazırlıq kursu keçib. Kiçik leytenant rütbəsi alıb.

Artıq doğmaları Əhmədiyyə Cəbrayılovun hərbi xidmətdən gəlişini gözləyirdilər. Ancaq onun hərbi xidmətinin bitməsinə az qalmış İkinci Dünya müharibəsinin başlaması xəbəri gəlib. Cəbrayılovlar ailəsindən cəbhəyə 5 nəfər - Paşa, Abdulsalam, Məmmədiyyə, Məmmədsadıq və Əhmədiyyə yollandı. Onlardan ikisi sağ qaldı

Əhmədiyyə Cəbrayılov gənc yaşında qanlı-qadalı müharibənin sərt üzünü gördü, ölüm qoxusunu dönə-dönə hiss etdi. Bir gün Xarkovdan 200 kilometr aralıda yerləşən, olduqca mühüm strateji mövqeyə malik bir şəhərə göndərilib. Şəhər üç dəfə almanlar tərəfindən işğal olunsa da, sovet ordusu onu geri qaytara bilmişdi. 1942-ci ilin aprelində isə tapşırığa əsasən, Ukraynanın Donbas şəhərinə yollanıb və 350-ci alayda siyasi rəhbər köməkçisi təyin olunub. Alayın tərkibində Ukraynanın Barvinki-Lozovaya-İzyum rayonu ətrafındakı döyüşlərdə iştirak edib. Fərqləndiyinə görə baş leytenant rütbəsi alıb.

1942-ci ilin aprel-may aylarında Ukraynada gedən ağır döyüşlərin iştirakçısı olub. Əməliyyat zamanı təyyarəsi Kursk ətrafındakı döyüşlərdə vurulub. Əhmədiyyə Cəbrayılov İzyum çayı yaxınlığında ağır yaralı vəziyyətdə almanlara əsir düşüb, Barbinka və Lvovdakı həbs düşərgələrinə göndərilib. Əhmədiyyə Cəbrayılovu yoldaşları ilə birgə vaqonlara mindirib Polşaya, daha sonra Almaniyaya göndəriblər. Əsirlərin sayı həddən artıq çox olub. Ona görə onların bir hissəsini Fransaya aparıblar.

Əsirlikdə məşəqqətlər görüb. Onu bir qrup əsirlə 1943-cü ildə Dahau ölüm düşərgəsinə aparıb, qaz kamerasına salıblar. Bir müddət sonra qarovulçular kameranın qapısını açıblar. Əsirlərdən bircə nəfər sağ qalıb. O, Əhmədiyyə Cəbrayılov idi...

1943-cü ilin sonunda göndərildiyi Rodezdəki Bürlup kazarmasında vərəm xəstəliyinə tutulub. Yenə ölümlə üzləşib. Amma taleyi ondan üz döndərməyib. Gestaponun xadiməsi işləyən Janna adlı yunan qadını ilə rastlaşıb. Çox gözəl insan olan Jannaya müharibə ağır faciələr yaşatmışdı. Həyat yoldaşını və oğlunu faşistlər asmışdı. Bədbəxt qadın qızı ilə birgə baş götürüb Fransaya qaçmışdı. Janna Əhmədiyyəni vəfat etmiş oğluna bənzədir, ona əlindən gəldiyi qədər kömək edirdi. Təmizlik işi apararkən gizlicə çörək də gətirirdi ki, Əhmədiyyə sağ qalsın.

Gestapoda bir gün onu yenə vəhşicəsinə döyüblər. Öldüyünü güman edib zirzəmiyə atıblar. Janna Əhmədiyyənin hələ sağ olduğunu görüb. Faşistlər onu basdırmaq istəyiblər. Janna əsirin oğluna oxşadığını söyləyib və onu öz adəti ilə dəfn etmək üçün gestapodan izn istəyib. Bir gün qabaq qazdırdığı məzarda hava keçməsi üçün yer qoyub. Səhəri gün alman zabitlərinin müşayiəti ilə Əhmədiyyə dəfn edilib. Jannanın planını başa düşməyiblər. Tabutun aralı olduğunun fərqinə varmasalar da, əsirin öldüyünə əmin olmaq üçün ona atəş açıblar. Yenə də taleyi ondan üz döndərməyib. Güllə Əhmədiyyənin ayağını yaralayıb.

Janna alman əsgərləri gedənədək gözləyib. Sonra Əhmədiyyəni məzardan çıxarıb evindəki zirzəmiyə aparıb. Gənc döyüşçünün qayğısına qalıb. Tezliklə sağalan Əhmədiyyə Cəbrayılov faşistlərdən qisas almaq, döyüş meydanlarına qayıtmaq üçün planlar qurub. Fransız dilini öyrənib. Partizan hərəkatına qoşulub. Ona “Xarqo” ləqəbi verilib.

Əhmədiyyə Cəbrayılov 1944-cü ilin 22 mayında Kaberta partizan dəstəsinə, sonra “Düma” ləqəbli kapitan Delplankın gizli ordusuna qoşulub. İlk vaxtlar partizanlar Əhmədiyyəyə o qədər də etibar etməyiblər. Onu sınamaq üçün bir neçə dəfə kəşfiyyata göndəriblər. Əhmədiyyə Cəbrayılov əməliyyatlardan uğurla qayıdıb. Həmin dəstənin tərkibində Tarn və Qaronun azad edilməsi uğrunda döyüşlərdə iştirak edib. Artıq Əhmədiyyə partizanların inamını qazanmışdı.

Partizan Xarqonun dəstəsinə ən çətin, mühüm tapşırıqlar verilirdi. Onların bəzisi almanların hücum planını öyrənmək məqsədi daşıyırdı. Kəşfiyyat tapşırıqlarını yerinə yetirmək üçün çox zaman tanınmasın deyə görkəmini, qiyafəsini, adını dəyişməli olurdu. Əhmədiyyə Cəbrayılov “Armed Mişel”, “Fraji”, “Xarqo” və digər adlarla Fransanın azadlığı uğrunda döyüşlərdə iştirak edib. Alman faşistləri onun başına 10 min alman markası məbləğində mükafat təyin ediblər.

Növbəti tapşırıq Almaniyaya əsir aparılanların ailələrini xilas etmək olub. Əməliyyat zamanı faşistlər məsələni anlayıblar. Atışma başlayıb. Əhmədiyyə Cəbrayılov yaralanıb. O, yoldaşlarının köməyi ilə qaçsa da, çox uzağa gedə bilməyib. Huşsuz vəziyyətdə səhərədək dəmir yolu ilə şose yolun arasında qalmalı olub. Gündüz saat 3-də maşınla yoldan keçən general Javerin Əhmədiyyəni görüb. Maşını saxlatdırıb. Oberleytenant formalı zabitin üstündə sənəd yox idi. Onun alman zabiti olduğunu düşünüblər. Maşınla hospitala gətiriblər. General həkimlərə əmr edib ki, onu nəyin bahasına olursa-olsun sağaltsınlar. Alman faşistləri hər yerdə axtardıqları partizan Xarqonu həyata qaytardıqlarını bilməyiblər.

Əhmədiyyə Cəbrayılov sağaldıqdan sonra özünü “oberleytenant Hofman” kimi təqdim edib. General Javer onu yanında işə götürüb. Sonra o, Albi şəhər komendantı təyin edilib. Həmin günlərdə düşərgədən qaçmaların na imkan yaratdığı əsirlərin arasında həmyerliləri də olub.

Əsirlikdən xilas etdiyi şəxslər bu müəmmalı qəhrəman barədə danışıblar. Onun kimliyini öyrənmək məqsədilə kəşfiyyata çıxan əsgər qarşısında partizan Xarqonu görəndə təəccüblənib. Yoldaşları ölmüş bildikləri Əhmədiyyənin sağ olduğunu eşidəndə seviniblər.

1944-cü ilin 17 avqustunda Montobanın 18-ci kilometrliyində yerləşən La Tangin adlı yerdə, Kossad və Realvil arasında gedən vuruşmalarda 6-cı briqadanın tərkibində döyüşüb. Avqustun 19-da Montoban azad edilib.

Əhmədiyyə Cəbrayılov əməliyyatların birində qəhrəman “Mixaylo” - Mehdi Hüseynzadə ilə görüşüb.

Partizan dəstəsi tərkibində Paris şəhərinin azad olunmasında da iştirak edib. Əhmədiyyə Cəbrayılov həmin gün general Şarl de Qolla tanış olub. O, 1944-cü ilin 28 avqustunda Montobanda yaradılan 3-cü briqadaya daxil olub. Vozj və Alzasdakı döyüşlərdə iştirak edib. 1945-ci ilin 13 martında Montoban Şəhər Bələdiyyə İdarəsinin başçısı Trankunun təsdiqlədiyi sənəddə Əhmədiyyə Cəbrayılovun Fransa müqavimət hərəkatında fəal iştirak etdiyi qeyd olunub.

Müharibə başa çatıb. Armed Mişel kimi tanınan Əhmədiyyə də bir çoxları kimi əsl qəhrəmana çevrilib. Haqqında minnətdarlıqla, sevgi ilə söz açıblar. Əhmədiyyə Cəbrayılovun ölkəsinin vətəndaşı olmasını arzulayanlar çox olub. Şarl de Qoll da dəfələrlə Armed Mişelə Fransada qalıb yaşamağı, Amerika səfirliyi isə ona ABŞ vətəndaşı olmağı təklif edib. Onun hərbi şücaətləri layiqincə dəyərləndirilib. Əhmədiyyə Cəbrayılov Fransanın Milli Qəhrəmanı adına layiq görülüb. O, həm də “Fəxri legion” ordeni ilə təltif edilib. Həmin orden hərbi paradlarda, rəsmi keçidlərdə ona generallardan qabaqda getmək hüququ verib.

O, bütün qəlbi ilə vətəninə bağlı idi. Şəkinin, orda qalan doğmalarının həsrəti Əhmədiyyə Cəbrayılovu rahat buraxmayıb. Nəhayət, 1946-cı ilin 25 noyabrında arzusu həyata keçib. Fransa Prezidenti Şarl de Qollun köməyi ilə vətənə qayıdıb.

Burada “KQB”çilər Əhmədiyyəni rahat buraxmayıblar. Moskvada yoxlama zamanı mükafatlarının bir hissəsini əlindən alıblar. Hətta onu “vətən xaini” adlandırıblar.

Fransa Prezidenti Şarl de Qoll 1966-cı ildə SSRİ-yə səfər edib. Moskvada keçmiş dostu ilə görüşən Əhmədiyyə Cəbrayılov bundan sonra sovetlər ittifaqında da Fransanın Milli Qəhrəmanı kimi tanınıb.

Müharibənin yaraları sağalmasa da, həyatı axarına düşüb. 1947-ci ildə ailə qurub. Yeddi uşaq atası olub. 1970-ci ildə Şəki rayonu N.Nərimanov adına Kolxozda baş aqronom kimi işə başlayıb. Əməkdə də fərqlənib. 1971-ci ildə “Qırmızı Əmək Bayrağı” ordeninə layiq görülüb.

İkinci Dünya müharibəsinin əfsanəvi qəhrəmanı Əhmədiyyə Cəbrayılovun keçdiyi döyüş yolu yaddan çıxmayıb. O, 1986-cı ildə 5 fransız mükafatına - “Müharibə xaçı”, “Hərbi şücaət xaçı”, “Fransa Müqavimət hərəkatı medalı”, “İgidliyə görə medal”, “Yaralanmağa görə medal”a layiq görülüb.

1994-cü il oktyabrın 10-da Əhmədiyyə Cəbrayılov Şəkidə yol-nəqliyyat qəzasında vəfat edib.

XX əsrin sonuncu onilliyində Azərbaycanın başının üstündə qara buludlar dolaşırdı. O günlərdə Vətənimizin suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərənlərdən biri də Cəbrayılovlar ailəsinin övladı oldu. Əhmədiyyə Cəbrayılovun oğlu, polis leytenantı Mikayıl ermənilərə qarşı döyüşlərdə igidlik göstərdi. O, 1992-ci ildə şəhidlik zirvəsinə yüksəldi. Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov Azərbaycanın ilk Milli Qəhrəmanlarındandır.

***Rafiq HÜSEYNOV,***
***texnika elmləri doktoru, professor, “Şəki ziyalıları” Xeyriyyə Cəmiyyətinin sədri***

# Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) Dezinfeksiya xidmətlərinin, dispenserlərin və dezinfeksiya məhlulunun satın alınması üçün açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sisteminə keçid edərək ARDNF-in qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T BIK: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) **14 oktyabr 2020-ci il saat 10:00-a**, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) **22 oktyabr 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər **23 oktyabr 2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tenderə dəvət edir

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - Elektrik və məişət təsərrüfat mallarının satın alınması.**

**LOT 2 - Xətt təsərrüfatında istifadə etmək üçün su pompası və ehtiyat hissələrinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**LOT 1 üzrə - 100 ( bir yüz ) manat (ƏDV daxil)**
**LOT 2 üzrə - 100 (bir yüz) manat (ƏDV daxil)**
İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN ödəniş" Portalı vasitəsilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **13 oktyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **21 oktyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **22 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 03 sentyabr 2020-ci il tarixdə **www.etender.gov.az** Portalında, 04 sentyabr 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş 271915 - "Özünüməşğulluq tədbirlərinin təşkili" maddəsi üzrə intensiv meyvə bağlarının yaradılması və təsərrüfatların təhvil verilməsi ilə bağlı malların (işlərin, xidmətlərin) satın alınmasına dair keçirilmiş təkliflər sorğusunda tender komissiyasının qərarı ilə "Parlar Ting A.T" MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla 15 sentyabr 2020-ci il tarixdə 2 233 507,04 manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Bakı Telefon Rabitəsi" MMC tərəfindən elektrik və məişət təsərrüfat mallarının satın alınması üzrə keçirilən tenderdə qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) sayı yetərli olmadığı üçün "Dövlət satınalmaları haqqında" qanunun 50-4.2-ci maddəsinə əsasən, tender ləğv edilir.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Bakı Telefon Rabitəsi" MMC tərəfindən "BTR" MMC-nin RXM-lərində xətt təsərrüfatında istifadə etmək üçün su pompası və ehtiyat hissələrinin satın alınması üzrə keçirilən tenderdə qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) sayı yetərli olmadığı üçün "Dövlət satınalmaları haqqında" qanunun 50-4.2-ci maddəsinə əsasən, tender ləğv edilir.

***Tender komissiyası***

# Vətəndaş məmnunluğunun təmin olunması prokurorluq orqanları üçün prioritet məsələdir

Vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə müraciətlərin prokurorluq orqanları tərəfindən müsbət həlli, habelə pozulmuş vətəndaş hüquq və azadlıqlarının bərpası istiqamətində daim kompleks tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, Baş Prokurorluğun sosial şəbəkə hesablarında paylaşımların şərh bölmələrində, eləcə də birbaşa məktub vasitəsilə prokurorluq orqanlarına şikayət edərək müraciəti müsbət həll olunmuş çoxsaylı vətəndaşlar məmnunluqlarını ifadə edirlər. Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən qeyd olunanlarla bağlı #sözvətəndaşda həştəqi altında videolar hazırlanaraq ictimaiyyətə təqdim olunur.

Təqdim olunan növbəti videomüraciətdə pulunun dələduzluq yolu ilə ələ keçirilməsinə dair Xətai Rayon Prokurorluğuna müraciət edən vətəndaş prokurorluq tərəfindən görülmüş işlərdən məmnunluğunu bildirib.

Videogörüntüləri Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələrindən, həmçinin veb-saytından izləmək mümkündür.

Vətəndaş məmnuniyyətinin təmin olunması prokurorluq orqanları üçün hər zaman prioritet məsələdir.

# "Mingəçevir Şəhər Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsi 2020-ci il üçün *kotirovka sorğusu elan edir*

Tibbi avadanlığın cari təmiri

Kotirovka sorğusu üzrə tələb olunan sənədlər 28 sentyabr 2020-ci il saat 11:00-dək qəbul edilir.

Zərflərin açılışı: 28 sentyabr 2020-ci il saat 14:00-da olacaqdır.

**Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12**
**Telefon: +99455 500 45 99; +99455 204 15 20**

***Tender komissiyası***

# Naftalan, Ağstafa və Lerikdə 14 şəhid ailəsi və Qarabağ müharibəsi əlili evlərlə təmin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naftalanda 6, Ağstafa rayonunda 6, Lerik rayonunda isə 2 yeni inşa etdirilmiş fərdi yaşayış evi şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Naftalanda keçirilən evlərin təqdim edilməsi tədbirində nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədr müavini Pərviz Səfərov, Naftalan Şəhər İcra Hakimiyyəti başçısının müavini Arzu Məmmədov və digərləri iştirak ediblər.

Tədbirdə Prezident İlham Əliyevin həssas əhali qruplarına xüsusi qayğısından bəhs olunaraq qeyd edilib ki, sosial müdafiə proqramlarından biri olan şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatı proqramı ildən-ilə genişləndirilir. Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626, ötən il 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən, 2020-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi işləri aparılır. Bu gün Naftalan şəhərində, Ağstafa və Lerik rayonlarında təqdim edilən fərdi evlər də daxil olmaqla, onlardan artıq 598 mənzil və fərdi ev (o cümlədən 554 mənzil, 44 fərdi ev) verilib. Qalan evlər ilin sonunadək təqdim olunacaq.

Qeyd edilib ki, ümumilikdə, ötən dövrdə şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8 min 186 mənzil və fərdi ev verilib.

Yeni fərdi yaşayış evi ilə təmin edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onların rifahına göstərilən yüksək qayğıya, bu gün isə yeni fərdi yaşayış evləri ilə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Beynəlxalq aləm

## ABŞ-da təyyarə qəzaya uğradı



ABŞ-ın Texas ştatında təyyarənin qəzaya uğraması nəticəsində 4 nəfər həlak olub. Piper PA-46 təyyarəsi Ostin şəhərindən Luizianaya uçurmuş.

Qəzaya texniki nasazlıqlar səbəb olub. Təyyarə Hilton Leyks aeroportuna təcili enməyə məcbur olub və qəzaya uğrayıb.

Təyyarədə olanların heç biri sağ qalmayıb.

ABŞ-ın Nəqliyyatda Milli Təhlükəsizlik Şurası təhqiqata başlayıb.

## Hindistanda üçmərtəbəli yaşayış evi uçdu



Hindistanın qərbində yerləşən Bhivandi şəhərində üçmərtəbəli yaşayış binası uçub. ANİ Agentliyi xəbər verir ki, hazırda səkkiz nəfər həlak olub.

Qəzadan dərhal sonra yerli sakinlər 20-yə yaxın insanı xilas edə bilib.

Dağıntılar altında daha 20-25 nəfər ola bilər. Xilasedicilər onların axtarışları üçün texnika və xüsusi təlim keçmiş itdən istifadə edirlər.

Qəzanın səbəbi hələ ki məlum deyil.

## Kolumbiya altı aydan sonra əcnəbilər üçün sərhədləri açır

Kolumbiyada koronavirus pandemiyasının zirvəsindən keçdiyi bildirilir, lakin fövqəladə vəziyyət rejimi noyabrın 1-dək qüvvədə olacaq.



Bəzi məhdudiyyətlər sentyabrın 1-dən, sərt təcriddən altı ay sonra götürülməyə başlayıb, sentyabrın 21-dən isə hakimiyyət beynəlxalq hava əlaqəsini bərpa edib. Nəqliyyat naziri Mariya Oroskonun sözlərinə görə, karantindən sonra ilk reyslər ABŞ, Meksika, Dominikan, Braziliya, Ekvador, Boliviya və Qvatemalaya gedəcək.

Ölkəyə gələn əcnəbilər koronavirus xəstəsi olmaması haqqında arayış təqdim etməlidirlər. "Lonely Planet" portalının xəbərinə görə, dəniz və quru sərhədləri hələ də qapalı qalacaq.

## BMT İdlibə 46 yük maşınında yardım göndərdi

BMT Türkiyə ilə həmsərhəd olan İdlib deeskalasiyası zonasındakı "Atme" qaçqın düşərgəsinə 46 yük maşınında humanitar yardım göndərib.



Yük maşınları Suriya ərazisinə Türkiyənin Hatay vilayətinin Reyhanlı rayonunda yerləşən Cilvəgözü məntəqəsindən keçib.

1150 ton humanitar yardım, o cümlədən un, şəkər və yağ tərkibli paketlər Suriyanın şimal-qərbində ehtiyacı olan ailələr arasında paylanacaq.

BMT-dən bildiriblər ki, İdlib şəhərinin və onun ətraf qəsəbələrinin əhalisinə yardım davam etdiriləcək.

# Xızı rayonunda qəsdən adam öldürməyə cəhddə və sağlamlığa zərər vurmada şübhəli bilinən şəxslər tutulublar

Sentyabrın 19-da Xızı rayonunun Altıağac qəsəbəsi ərazisində qəsəbə sakini Rauf Fərzəliyevə bıçaqla xəsarət yetirilməsi barədə rayon prokurorluğuna məlumat verilib.

Xızı Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla Rauf Fərzəliyevin şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı ov tüfəngi ilə dayısı Vahid Əhmədovu qəsdən öldürmək məqsədilə atəş açmasına baxmayaraq, güllənin ona dəyməyərək yan keçməsinə, daha sonra isə Vahid Əhmədovun bıçaqla Rauf Fərzəliyevə qəsdən sağlamlığa az ağır zərər vuran bədən xəsarəti yetirməsinə əsaslı şübhələr müəyyən olunub.

Faktla bağlı Xızı Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) və 127.1-ci (qəsdən sağlamlığa az ağır zərər vurma) maddələri ilə cinayət işi başlanıb.

Rauf Fərzəliyev Cinayət Məcəlləsinin 29, 120.1-ci, Vahid Əhmədov isə 127.1-ci maddəsi ilə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

Təkrar

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi mebel inventarlarının satın alınması məqsədilə tender elan edir

Tender 1 LOT üzrə keçirilir:
LOT-1. Mebel inventarlarının satın alınması
Tenderdə iştirak etmək istəyənlər LOT üzrə 300 (üç yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 ünvanından (əlaqələndirici şəxs - Səadət İsmayılova, tel: (+99412) 465-73-48 (daxili 141)) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blanklarda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (son bir ayda alınmış);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən peşəkarlığı və təcrübəsi barədə məlumat (bağladığı müqavilələrin surəti);*
- *iddiaçının 2018 və 2019-cu illər üzrə maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1) (təsdiqedici sənədlər əlavə olunmaqla);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənəd (müvafiq orqan tərəfindən verilmiş);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
- *ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **13.10.2020-ci il saat 17:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **21.10.2020-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **22.10.2020-ci il saat 15.00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.
İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi müayinə mərkəzlərində çalışan texniki heyət və xadimələr üçün xüsusi iş-geyim formalarının (gödəkçə, kostyum (texniki heyət üçün), köynək, ayaqqabı, papaq, kostyum (xadimə üçün) kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (+99412) 590-81-60 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 24.09.2020-ci il saat 09:00-dək qəbul olunur.

**Ünvan: Xırdalan, Binəqədi şosesi, 4.**
**Telefon: (+99412) 590-81-60. E-mail: itts703@rambler.ru**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi media-monitorinq xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (+99412) 590-81-60 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 24.09.2020-ci il saat 10:00-dək qəbul olunur.

**Ünvan: Xırdalan, Binəqədi şosesi, 4.**
**Telefon: (+99412) 590-81-60. E-mail: itts703@rambler.ru**

***Tender komissiyası***

## AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu Elmi-tədqiqat işləri, Elmi-tədqiqat işləri üzrə təcrübə və təcrübə-sınaq işlərinin aparılması, İstehlakyönlü müxtəlif xidmətlərin satın alması üzrə *açıq tender elan edir*

AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu aşağıdakı LOT-lar üzrə
LOT -1. "Elmi-tədqiqat işləri"
LOT -2. "Elmi-tədqiqat işləri üzrə təcrübə və təcrübə-sınaq işlərinin aparılması"
LOT- 3. "İstehlakyönlü müxtəlif xidmətlər"
"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma keçirir.
Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün institutun aşağıdakı hesabına hər bir LOT üzrə 100 (yüz) manat məbləğində iştirak haqqı ödəməklə **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı (Portal) vasitəsilə tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.
**Bank rekvizitləri:**
**Az 1025, Bakı şəh., Xocalı pr.30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**
Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.
İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **13 oktyabr 2020-ci il saat 12:00-a** qədər, tender təklifi və bank təminatını **21 oktyabr 2020-ci il saat 10:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.
İddiaçıların təklifləri **22 oktyabr 2020-ci il saat 12:00-da** dövlət satınalmalarının vahid internet Portalında açılacaqdır.
İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə həyata keçirilməlidir.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"
### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC* (012) 440-46-94, (070) 244-17-34
*"Azərpoçt" ASC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 564-63-45, (050) 214-04-05
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 18.09.2020-ci il tarixdə LOT-1 Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-Ats Azad İqtisadi Zona və EATS-491-Sahil Ats-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-xq) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan mal-materialların, LOT-2 Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-Ats Azad İqtisadi Zona və EATS-491-Sahil Ats-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-xq) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan PVC boru və birləşdiricilərin, LOT-3 Ələt Azad İqtisadi zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-Ats Azad İqtisadi Zona və EATS-491-Sahil Ats-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-xq) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan istismar işləri üçün istifadə olunacaq mal-materialların, LOT-4 Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-Ats Azad İqtisadi Zona və EATS-491-Sahil Ats-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-xq) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan Fiber optik, TPP kabelləri və birləşdiricilərin, LOT 5 Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-Ats Azad İqtisadi Zona və EATS-491-sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-xq) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan qum, sement, çınqıl və s. mal-materialların satın alınması üzrə elan edilmiş açıq tender müvəqqəti olaraq ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən "Təhsil müəssisələrinin təmir-tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması" üzrə 18 sentyabr 2020-ci il tarixdə keçirilmiş elektron açıq tenderdə LOT-1, LOT-3 və LOT-6 üzrə "Azkommunlayihə" KLİ, LOT-2 və LOT-5 üzrə "SOSİAL-İNKİŞAF LAYİHƏ" MMC, LOT-4 üzrə "El&En" MMC qalib elan edilmişdir.
Qalib təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Plastik qapı və pəncərə profillərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.
Müraciət üçün son müddət 29 sentyabr 2020-ci il saat 18:00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Masallı rayon prokuroru Vəli Mustafayevə atası
**İBRAHİM MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sahir Məmmədxanov Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov və təşkilatın üzvləri Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" ASC-nin Direktorlar Şurasının sədri Əfəndi İsmiyev və şirkətin kollektivi "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7645
Sifariş 2223
Qiyməti 40 qəpik